AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

25 noyabr 2016-cı il № 77-80 (9083) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### BİRGƏ LAYİHƏLƏRİN İCRASININ MÜMKÜNLÜYÜNƏ ƏMİNLİK İFADƏ OLUNUB

*Noyabrın 10-da İran İslam Respublikası Yol və Şəhərsalma Nazirliyinin Limanlar və Dəniz Təşkilatının nümayəndələri (PMO) "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyi ilə görüşüblər.*

Səh. 2

### AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN STENDİ BU DƏFƏ DƏ BÖYÜK MARAQLA QARŞILANIB



*Noyabrın 16-18-də Bakı Ekspo Mərkəzində Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi və IDEA (International Dialogue for Environmental Action – Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin dəstəyi ilə 7-ci Azərbaycan beynəlxalq ətraf mühit sərgisi ("Caspian Ecology") keçirilib.*

Səh. 3

### GÜZƏŞTLİ MƏNZİLLƏR KİMLƏRƏ VƏ HANSI ŞƏRTLƏRLƏ VERİLƏCƏK?



*Prezident İlham Əliyevin 2016-cı il 16 noyabr tarixli Fərmanı ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzillərin vətəndaşların güzəştlə əldə etməsi Qaydası" təsdiqlənib. Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru Samir Nuriyev təsdiq olunmuş yeni Qaydalarla bağlı və vətəndaşların güzəştli şərtlərlə mənzilə sahib olmasını təmin etmək məqsədilə görülən işlər barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.*

Səh. 4

### "İSRAFİL HÜSEYNOV" BORUDÜZƏN GƏMİSİ HAZIRDA 32 DÜYMLÜK QAZ İXRAC XƏTLƏRİNİN İNŞASINI HƏYATA KEÇİRİR



*Bu ilin yanvar-sentyabr aylarında "Şahdəniz Mərhələ 2" layihəsi uğurla irəliləməyə davam edib. Hazırda layihə üzrə işlərin - mühəndis işləri, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 83 faizdən çoxu tamamlanıb və ilk qazın 2018-ci ildə əldə edilməsi planına uyğundur.*

Səh. 5

### BAKI-SUMQAYIT-BAKI QATARLARI BİLƏCƏRİ VƏ XIRDALAN STANSİYALARINDA DA DAYANIR



*Noyabrın 19-dan etibarən Bakı-Sumqayıt-Bakı istiqamətində hərəkət edən elektrik qatarlarına Biləcəri və Xırdalan stansiyalarında dayanacaq verilir.*

Səh. 7

### AZƏRBAYCAN İDMAN ÖLKƏLƏRİNİN REYTİNQİNDƏ İRƏLİLƏYİB




*Beynəlxalq nüfuzlu "Sportcal" (Sport Market Intelligence) şirkəti dünyanın qabaqcıl idman ölkələri və şəhərlərinin siyahısını açıqlayıb.*

Səh. 8

# PREZİDENT İLHAM ƏLİYEV XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN YENİ GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK EDİB














**Noyabrın 18-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Rəşid Behbudov" sürətli sərnişin gəmisi, "Gəncə" tankeri və "Qafur Məmmədov" quru yük gəmisinin istismara verilməsi mərasimi oldu.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etdi.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev Prezident İlham Əliyevə yeni gəmilər barədə məlumat verdi.

Dövlətimizin başçısı əvvəlcə "Gəncə" tankeri ilə tanış oldu. Bu tanker "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və "Caspian Marine Services" Alyansı tərəfindən sifariş olunan 2 yeni tankerdən biridir. Tanker 7 min ton yükgötürmə qabiliyyətinə malikdir. Uzunluğu 140,9, eni 16,7, saya oturumu isə 4,2 metr olan bu tanker Volqa-Don-Maks tipli, yəni, dayaz sularda üzməklə maksimum yükgötürmə qabiliyyətinə malikdir.

"Gəncə" tankerinin texniki göstəriciləri onun gələcəkdə Xəzər hövzəsində dayaz limanlara daxil olmasına, eyni zamanda, Volqa-Don, Volqa-Balt kanallarında üzməsinə imkan yaradır. Bu tanker ən müasir avadanlıqla təchiz olunub. Hazırda Xəzər dənizində yükgötürmə qabiliyyətinə görə ən böyük tankerlər Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə məxsusdur və onlar 13 min ton dedveytə malikdir. Bu tankerlərin saya oturumu çox olduğundan onlar Xəzər dənizini xarici sularla əlaqələndirən Rusiyanın daxili su kanallarına, o cümlədən İran limanlarına yüklə daxil ola bilmirlər. Həcminin artması proqnozlaşdırılan maye yüklərin daşınmasını təmin etmək üçün "Gəncə" tipli tankerlərin böyük iqtisadi əhəmiyyəti var.

Dövlətimizin başçısı "Gəncə" tankerinin istismara verilməsini bildirən düyməni basdı.

Prezident İlham Əliyevə bu günlərdə Bakı gəmiqayırma zavodunda tikintisinə dair müqavilə imzalanmış nadir Ro-Pax/Bərə tipli iki gəmi barədə məlumat verildi. Yeni nəsildən olan bu tipli gəminin konsepsiyasının hazırlanması üçün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC son 1 ildən artıq müddətdə Odessa Dəniz Mühəndisliyi Bürosunun təcrübəli mütəxəssisləri ilə uzunmüddətli texniki müzakirələr aparıb və Xəzər dənizində suyun səviyyəsi, yanalma körpülərinin maksimal imkanları nəzərə alınaraq, 100 sərnişin, 56 vaqon və ya 50 yük maşını (TIR) tutumlu gəminin eskiz və texniki layihəsi hazırlanıb. Bu cür nadir konsepsiyaya malik və yeni nəsildən olan ilk bərə tipli gəmilərin tikintisi müasir infrastruktura və potensiala malik Bakı gəmiqayırma zavodunda aparılacaq.

Sonra Bakı gəmiqayırma zavodunda bu tipli daha 2 tankerin tikintisi üzrə sifarişlə bağlı "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə Bakı gəmiqayırma zavodu arasında müqavilə imzalandı.

Yeni tankerlər Xəzərdə suyun mövcud səviyyəsində, az saya oturumla maksimum çox yük götürə bilən nadir gəmilər olacaq. Belə ki, tankerin digər texniki xarakteristikaları eyni saxlanılmaqla, yükgötürmə qabiliyyətinin 8 min tonadək artırılmasına nail olunacaq. Yeni nəsil tanker ilk dəfə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanması üçün məhz Bakı gəmiqayırma zavodunda inşa ediləcək.

*(Davamı 2-ci səhifədə)*

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

**№ 430 QƏRAR Bakı şəhəri, 1 noyabr 2016-cı il**

**"Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının qrafik təsviri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 315 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**



"Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 57-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 yanvar tarixli 739 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 oktyabr tarixli 1054 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının qrafik təsviri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 315 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1452) adına və 1-ci hissəsinə "zolağının" sözündən sonra "kağız üzərində və elektron formada (ArcGİS proqramında mdb formatda, gücləndirilmiş elektron imzalı)" sözləri əlavə edilsin.

*Artur Rasi-zadə,*
*Azərbaycan Respublikasının Baş naziri*

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

**№ 441 QƏRAR Bakı şəhəri, 7 noyabr 2016-cı il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 yanvar tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının sərhədyanı ərazilərində, o cümlədən sərhəd çaylarında, Xəzər dənizinin (gölünün) Azərbaycan hissəsində telekommunikasiya vasitələrinin və qurğularının tikintisi, istismarı və qəza-bərpa işlərinin aparılması Qaydaları"nda dəyişikliklər edilməsi barədə**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.8-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 yanvar tarixli 3 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 36, № 5, maddə 472; 2014, № 6, maddə 747; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 22 sentyabr tarixli 360 nömrəli qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının sərhədyanı ərazilərində, o cümlədən sərhəd çaylarında, Xəzər dənizinin (gölünün) Azərbaycan hissəsində telekommunikasiya vasitələrinin və qurğularının tikintisi, istismarı və qəza-bərpa işlərinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.11-ci bəndin "ç" yarımbəndində "orqanların" sözü "qurumların" sözü ilə əvəz edilsin.

2. 1.23-cü bənddə "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və ya "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

*Artur Rasi-zadə,*
*Azərbaycan Respublikasının Baş naziri*

# PREZİDENT İLHAM ƏLİYEV XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN YENİ GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK EDİB

*(Əvvəli 1-ci səhifədə)*

Daha sonra Prezident İlham Əliyev burada Rəşid Behbudovun ailə üzvləri görüşdü.

Dövlətimizin başçısı görkəmli müğənninin ailə üzvləri ilə xatirə şəkli çəkdirdi.

"Rəşid Behbudov" gəmisinin istismara verilməsini bildirən rəmzi lent kəsildi.

Prezident İlham Əliyevə məlumat verildi ki, 150 nəfər tutan "Rəşid Behbudov" sürətli sərnişin gəmisi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və "Caspian Marine Services" Alyansının sifarişinə əsasən tikilib. Gəmidə ulu öndər Heydər Əliyev ilə Rəşid Behbudovun görüşləri və dövlətimizin başçısı İlham Əliyevin dünya şöhrətli müğənninin Bakıda abidəsinin açılışı zamanı çəkilən fotolardan ibarət stend yaradılıb. Xəzərdə neft və qaz layihələrində rəqabətqabiliyyətli, beynəlxalq standartlara uyğun yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində mühüm rol oynayacaq bu gəmi alüminium gövdəli sürətli sərnişin gəmilərinin tikintisi dünyada məşhur olan Avstraliyanın "Austal" gəmiqayırma zavodunda inşa edilib və sərnişinlərin, eləcə də kiçik həcmli yüklərin dəniz platformalarına təhlükəsiz çatdırılması üçün nəzərdə tutulub.

Gəmidə sərnişinlərin rahatlığı üçün yüksək şərait yaradılıb, ən son beynəlxalq konvensiya tələblərinə uyğun səs və titrəmə izolyasiyası təmin edilib, istirahət sahələri quraşdırılıb. "Rəşid Behbudov" sürətli sərnişin gəmisi eyni tipli "Müslüm Maqomayev" gəmisi ilə bərabər BP şirkətinin sifarişlərini yerinə yetirəcək. Bütövlükdə alüminium təbəqələrdən yığılmış katamaran tipli gəmi saatda 60 kilometr sürət yığmaq imkanına malikdir. Onun uzunluğu 70, eni isə 16 metrdir. Gəmi ən müasir avadanlıqla, o cümlədən DP-2 dayanıqlı mövqeləndirmə sistemi, sərnişinlərin platformalara təhlükəsiz keçidi üçün xüsusi teleskopik körpü ilə təchiz olunub. Bu isə onun





























Beynəlxalq Dənizçilik konvensiyalarının tələblərinə tam səviyyədə cavab verməsini təsdiqləyir. Belə gəmilərdə xüsusi teleskopik körpünün istifadəsi dünyada ilk dəfə tətbiq olunur. Hazırda irimiqyaslı neft və qaz layihələrinə xidmət edən bir sıra digər gəmiçilik şirkətləri teleskopik körpü texnologiyasının tətbiqini Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin təcrübəsi əsasında öyrənir. Bu texnologiya platformaya yan almadan, heyətin gəmidən platformaya qalxma-enmə əməliyyatlarında təhlükəsizliyə etibarlı zəmin yaradır.

Dünya şöhrətli müğənninin nəvəsi "Rəşid Behbudov" gəminin istismara verilməsini bildirən düyməni basdı.

Görkəmli sənətkar Rəşid Behbudovun ailə üzvlərinə gəminin maketi hədiyyə olundu.

Dövlətimizin başçısı İlham Əliyevə yeni alınmış "Qafur Məmmədov" quru yük gəmisi barədə də məlumat verildi. Bu gəminin dedveyti 5,500 ton, uzunluğu 108,3, eni 16,5, saya oturumu isə 4,79 metrdir. Gəmi Xəzərdəki quru yük donanmasının yenilənməsi, hazırda balansda olan, maksimum yükgötürmə qabiliyyəti 3 min ton təşkil edən və istismar müddətini başa vurmuş gəmiləri yeniləməyə və növbəti illər ərzində Gəmiçiliyin quru yük daşımaları bazarında mövqeyinin sabitləşməsinə imkan yaradır. Eyni zamanda, belə gəmilərin istismara verilməsi strateji əhəmiyyətə malik Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə salınması nəticəsində ölkəmizin ərazisindən keçməklə daşınacaq tranzit yüklərin və konteyner həcmlərinin mənzil başına vaxtında çatdırılmasında da mühüm əhəmiyyət daşıyır. Ümumilikdə, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 2014-2016-cı illər ərzində donanması üçün 5,500 ton yükgötürmə qabiliyyətinə malik 8 yeni quru yük gəmisi alıb. Hazırda Gəmiçiliyin Xəzərdən kənarda Azərbaycan bayrağı altında üzən gəmilərinin sayı 10-a çatıb.

## AZƏRBAYCAN BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATININ DƏNİZ TƏHLÜKƏSİZLİYİ KOMİTƏSİNİN 97-Cİ SESSİYASINDA TƏMSİL OLUNUR

***Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti BMT-nin ixtisaslaşmış agentliyi, ölkəmizin 1995-ci ildən üzv olduğu Beynəlxalq Dəniz Təşkilatının (IMO) London şəhərində yerləşən baş qərargahında qurumun Dəniz Təhlükəsizliyi Komitəsinin 97-ci sessiyasında iştirak edir.***

Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, cari il noyabrın 25-dək keçiriləcək sessiyada dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin edilməsi, dəniz mühitinin mühafizəsi, gələcəkdə dəniz qəzalarının qarşısının alınması, eləcə də beynəlxalq ictimaiyyəti dərindən narahat edən dəniz quldurluğu halları ilə mübarizəyə dair ümumi müzakirələr aparılacaq. Həmçinin sessiyada "Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya"ya, "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair Beynəlxalq Konvensiya"ya, "Maye qazları qalama şəklində daşıyan gəmilərin inşası və avadanlıqlarına dair Beynəlxalq Məcəllə"yə, "Neft tankerlərinin və qalama yüklər daşıyan gəmilərin yoxlanılması üzrə genişləndirilmiş təftiş proqramı haqqında Beynəlxalq Məcəllə"yə, "Dayanıqlılığa dair Beynəlxalq Məcəllə"yə və dəniz nəqliyyatı sahəsi üzrə bir sıra digər mühüm sənədlərə təklif edilən dəyişikliklərin nəzərdən keçirilməsi planlaşdırılır.

Sessiya çərçivəsində Azərbaycan nümayəndə heyətinin Beynəlxalq Dəniz Təşkilatının rəsmiləri, sessiyaya qatılmış bir sıra üzv dövlətlərin nümayəndə heyətləri ilə baş tutacaq ikitərəfli görüşlərində qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsi, habelə dəniz nəqliyyatı sahəsi ilə bağlı ölkəmiz üçün əhəmiyyətli olan bir sıra mühüm məsələlər ətrafında fikir mübadiləsinin aparılması nəzərdə tutulur.

## BİRGƏ LAYİHƏLƏRİN İCRASININ MÜMKÜNLÜYÜNƏ ƏMİNLİK İFADƏ OLUNUB

***Noyabrın 10-da İran İslam Respublikası Yol və Şəhərsalma Nazirliyinin Limanlar və Dəniz Təşkilatının nümayəndələri (PMO) "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyi ilə görüşüblər.***



Görüş zamanı Azərbaycanın son illər əldə etdiyi uğurların, paytaxt Bakının göz oxşamasının onlarda xoş təəssürat yaratdığını bildirən "PMO"-nun nümayəndəsi Cabbar Cəlilian daha sonra təmsil etdiyi qurum haqqında ətraflı məlumat verib və Gəmiçiliklə birgə layihələrin icrasının mümkünlüyünə əminliyini ifadə edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xəzər dənizinin dostluq, əməkdaşlıq və sülh dənizi olması fikrini qonaqların diqqətinə çatdıran "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev Azərbaycan dənizçilərinin dost və qonşu ölkənin şirkətləri ilə gəmiçilik sahəsində qarşılıqlı faydalı əməkdaşlıqda maraqlı olduqlarını bildirib. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin ölkə başçısının müvafiq sərəncamı ilə 3 il əvvəl yaradıldığını bildirən sədr kollektivin qısa müddət ərzində qazandığı uğurlar və qarşıda duran vəzifələrdən də söz açıb.

Tərəflər görüş zamanı ətraflı fikir mübadiləsi apardıqları yükdaşımalar, gəmi təmiri, dəniz dibinin dərinləşdirilməsi, agent xidmətləri, Xəzərdənkənar hövzələrdə fəaliyyət, dənizçilik təhsili sahələrində birgə əməkdaşlığın zəruriliyi haqqında razılığa gəliblər.

Görüşdən sonra qonaqlar Gəmiçiliyin muzeyi ilə yaxından tanış olublar.

## AVROPA İTTİFAQI AZƏRBAYCANDA AZAD TİCARƏT ZONASINA DƏSTƏK LAYİHƏSİ HƏYATA KEÇİRİR



***Avropa İttifaqı Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zonanın yaradılmasına dəstək olaraq dünyada mövcud müsbət təcrübələrin Azərbaycana gətirilməsi məqsədilə texniki dəstək layihəsi həyata keçirir.***

Bu sözləri Avropa İttifaqının Azərbaycandakı daimi nümayəndəliyinin rəhbəri Malena Mard jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, layihənin dəyəri 262 min avro təşkil edir. Amma burada layihənin məbləği yox, Avropa İttifaqı ilə Azərbaycan və Bakı Limanı arasındakı sıx əlaqələrin möhkəmlənməsi önəm kəsb edir.

M.Mardın sözlərinə görə layihənin icra müddəti 1 il olacaq və dünyada mövcud olan müsbət təcrübələr Azərbaycana gətiriləcək. Bunun üçün milli və beynəlxalq ekspertlər qrupu yaradılacaq. Azərbaycanın dayanıqlı inkişafı üçün bu layihənin böyük əhəmiyyəti var. Biz Avropa İttifaqı olaraq rəqabətədavamlılığın təmin olunmasında maraqlıyıq.

## "AZƏRBAYCANIN BƏXTİ GƏTİRİB Kİ, ÖLKƏ BAŞÇISI UZAQGÖRƏN VƏ TƏCRÜBƏLİ SİYASİ XADİMDİR"



***Bakı Limanı Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zonanın yaradılması üçün çox əlverişli yerdir və burada biznes mühitinin inkişafı üçün hər cür şərait var.***

Bu sözləri Azad Ticarət Zonaları və iqtisadi inkişaf sahəsi üzrə ingiltərəli mütəxəssis Toni Paul Restall jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, 30 ildir bu sahədə çalışan bir mütəxəssis kimi Ələt qəsəbəsində yerləşən Bakı Limanının ərazisində yaradılan Azad Ticarət Zonasının Azərbaycana iqtisadi uğur gətirəcəyini söyləyə bilər. Çünki bu zonanın yerləşmə mövqeyi, Bakının müasir və rahatlığı, enerji və neft yataqlarının olması bu işdə mühüm əhəmiyyət kəsb edir.

T.Restallın sözlərinə görə, Azərbaycan başqa ölkələrin təcrübəsindən və öz imkanlarından yararlanaraq bu layihəni uğurla həyata keçirəcək: "Ancaq mən bu işdə əsas amili vurğulamaq istəyirəm. Layihənin uğurla həyata keçməsində puldan daha önəmli bir faktor var. Bu da ölkə rəhbərinin necə olmasıdır. Mən əminliklə deyə bilərəm ki, Azərbaycanın bəxti gətirib ki, ölkə başçısı uzaqgörən və təcrübəli siyasi xadimdir. Bu işin müsbət nəticələnməsində onun qərarları əsas rol oynayır. Bu da mənə Azad Ticarət Zonasının uğurlu olacağını deməyə əsas verir".

# AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN STENDİ BU DƏFƏ DƏ BÖYÜK MARAQLA QARŞILANIB

***Noyabrın 16-18-də Bakı Ekspo Mərkəzində Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi və IDEA (International Dialogue for Environmental Action – Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin dəstəyi ilə 7-ci Azərbaycan beynəlxalq ətraf mühit sərgisi ("Caspian Ecology") keçirilib. Ekologiya və ətraf mühitin mühafizəsi sahəsində həm Xəzər, həm də Qafqaz regionlarında həyata keçirilən bu mühüm tədbirin təşkilatçısı qismində isə "Caspian Event Organisers" (CEO) şirkəti çıxış edib.***













Dünyanın 14 ölkəsindən 62 şirkəti bir məkana toplayan sərgidə Azərbaycanla yanaşı, Almaniya, Çexiya, Danimarka, İngiltərə və digər ölkələrdən şirkətlər də olub. "Caspian Ecology" sərgisində "Arkon Flow Systems" (Çexiya), "BLUCAST JSC" (Litva), "DIKKAN" (Türkiyə) şirkətləri ilk dəfə iştirak ediblər. Sərgidə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, "Təmiz Şəhər" ASC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC… ilə təmsil olunub. Bu il Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi sərgidəki stendində ölkəmizdə həyata keçirilən birgə ekoloji layihələri nümayiş etdirib.

Sərginin əsas məqsədlərindən biri insanların diqqətini ətraf mühit problemlərinə cəlb etmək olub. Bu sərgi Xəzər və Qafqaz regionlarında ekologiya və ətraf mühitin mühafizəsi sahəsində təşkil edilən ən iri tədbirdir. Burada ətraf mühitin mühafizəsi və təbiətdən səmərəli istifadə sahəsində innovativ layihələr kompleks şəkildə təqdim edilib.

Ümumilikdə "Caspian Ecology" sərgisində təbii resurslardan səmərəli istifadə sahəsində ən son məhsullar, sülb (bərk) tullantıların toplanması və utilizasiyası sistemləri, eləcə də alternativ energetika üzrə müasir avadanlıq nümunələri nümayiş olunub.

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin stendi həmişə olduğu kimi, bu dəfə də böyük maraqla qarşılanıb. Stendimizdə yer almış maketlər, şəkillər, videoçarx ətraf mühitin mühafizəsi istiqamətində aparılan bir çox digər mühüm işlərin, o cümlədən üzən vasitələrdə, sahil obyektlərində formalaşan bərk və maye istehsalat, məişət-təsərrüfat tullantılarının toplanması, saxlanması, daşınması, təhvili, utilizasiyası və təkrar emalı kimi ekoloji proseslərin Gəmiçilikdə necə həyata keçirildiyini əyani nümayiş etdirib. Ziyarətçiləri maraqlandıran suallar isə əməkdaşlarımız tərəfindən ətraflı cavablandırılıb.

Üç gün davam edən beynəlxalq "Caspian Ecology" sərgisi işgüzar əlaqələrin genişləndirilməsi, təcrübə mübadiləsi, habelə sənayedəki yeni avadanlıq və təmayüllərlə tanışlığa imkan yaratmaqla yanaşı, ətraf mühitin yaxşılaşdırılması istiqamətində görülən işlərə də əlavə təkan verib.

***Tahir DADAŞOV***

# MİLLİ DİRÇƏLİŞDƏN MİLLİ TƏRƏQQİYƏ DOĞRU

***Xalqın istiqlal mübarizəsinin əsas mərhələlərindən biri olan 17 noyabr – Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpa edilməsində tarixi rol oynayıb.***

Mənəvi əsaslarını və başlanğıcını XX əsrin 60-cı illərindən götürən bu tarix sonralar ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi ilə dönməz xarakter almış, müstəqil Azərbaycan müasir inkişaf yoluna qədəm qoymuşdur.

Keçən əsrin axırlarında dünyanın altıda birini əhatə edən Sovet İttifaqının iqtisadi, siyasi, mənəvi və ideoloji dayaqları sarsılmışdı. İmperiyanın siyasi "beyin mərkəzi"nin xalqlara, xüsusilə Azərbaycan xalqına qarşı yürütdüyü ayrı-seçkilik siyasəti kəskin xarakter aldı. M.Qorbaçov hakimiyyətinin dəstəyi ilə ermənilər Dağlıq Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına başladı. Ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hissləri alovlandırdı. XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etdi. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi.

Hakimiyyətə gəlişi ilə xalqa sağlam ruh və özünüdərk gətirən ümummilli lider Heydər Əliyev sovet ideologiyasının sərt qadağalarına baxmayaraq, milli mənəvi dəyərlərə, Azərbaycan elminin və mədəniyyətinin dirçəlişinə xüsusi önəm verdi. Bütün sahələrdə inkişaf və oyanış müşahidə olunmağa başladı. Azərbaycan əsl intibah və dirçəliş dövrünə qədəm qoydu. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində təhsil alan milli ruhlu alimlər və ziyalılar ordusu yetişdi. Dahi şəxsiyyət Heydər Əliyevin respublikada yaratdığı bu mənəvi-psixoloji və iqtisadi baza təxminən 20 il sonra Sovet İttifaqı dağılmağa başlayanda xalqın dayağı oldu.

1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş verdi. Bir-birini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildilər. Həmin o ağır məqamlarda yenə də ulu öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. İmperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "Sovet" və "Sosialist" sözlərinin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi addım idi. Bununla ümummilli liderimiz milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atdı.

Ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

# XƏZƏR DƏNİZİ AKVATORİYASINA, ONUN SAHİLLƏRİNƏ VƏ QURU YATAQLARINA NEFT VƏ NEFT MƏHSULLARININ SIZMASINA GƏTİRİB ÇIXARAN QƏZA HALLARININ PROFİLAKTİKASI İŞİNDƏ SƏYLƏR BİRLƏŞDİRİLMƏLİDİR

***Noyabrın 21-də Bakıda "Neftin dənizə və quruya sızması: yanacaq–energetika kompleksində sənaye təhlükəsizliyi" mövzusunda IV praktiki konfrans keçirilib.***






Konfransın əsas müzakirə mövzuları Xəzəryanı ölkələrin ekoloji çağırışlara hazırlığı, neft sızmalarının aradan qaldırılması, monitorinqi və qarşısının alınması üzrə yeni texnologiyaların tətbiqi, sızmaların və çirklənmələrin nəticələrinin aradan qaldırılması, təmizlənməsi və rekultivasiyası, habelə neft və neft məhsulları sızmalarının, neftin qəza nəticəsində suya və quruya sızmasının qarşısının alınması və profilaktikası məsələləri olub.

Konfransın moderatoru, "Lamor Turkey" şirkətinin baş direktoru Mətyu Brayzə deyib ki, məqsəd Xəzər dənizi akvatoriyasına, onun sahillərinə və quru yataqlarına neft və neft məhsullarının sızmasına gətirib çıxaran qəza hallarının profilaktikası işində Xəzəryanı ölkələrin neft-qaz sahəsi və dövlət təşkilatlarının səylərini birləşdirməkdir.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Xəzər Hövzə Qəza-xilasetmə Xidmətinin xüsusi avadanlığın təchizatı üzrə aparıcı mühəndisi Əkrəm Qəhrəmanov FHN-in, o cümlədən Qəza-xilasetmə Xidmətinin neft sızmalarının aradan qaldırılması üzrə fəaliyyətindən, neft sızmalarının nəticələrinin aradan qaldırılması çərçivəsində Azərbaycanla Xəzəryanı ölkələrin əməkdaşlığından danışıb.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin (TTSİ) direktoru Fuad Süleymanov Dövlət Neft Şirkətinin ekoloji təhlükəsizlik sahəsində kadrların ixtisasının artırılması istiqamətində gördüyü işlər barədə məlumat verib.

"Seanews" şirkətinin direktoru Cahid İstikbal Türkiyə limanları, habelə Bosfor və Cəbəllütariq boğazları timsalında neft və neft məhsullarının sızmasının nəticələrinin necə aradan qaldırılmasından danışıb. O, hadisəyə çevik reaksiya tədbirləri, ekoloji fəlakətlər əleyhinə səmərəli mübarizə vasitələri barədə məlumat verərək bildirib ki, bu ilin sonuna qədər Antalyada Qəza Hallarında Neft Sızmalarına Reaksiya Regional Mərkəzi fəaliyyətə başlayacaq.

"Dentons" şirkətinin böyük hüquqşünası Sona Tağıyeva Xəzər regionunda sənaye təhlükəsizliyi siyasətindən, neft şirkətlərinin fəaliyyətinin tənzimlənməsindən və podratçıların Azərbaycana cəlb olunmasından danışıb. O, neft-qaz kəşfiyyatı və hasilatında tətbiq edilən əsas normativ-hüquqi rejimlər, ətraf mühitin, həyat və əmlakın mühafizəsi, tullantıların məhv edilməsi, zərərli maddələrin atmosferə atılması əleyhinə mübarizə yolları barədə məlumat verib.

Böyük Britaniyanın "Confidence Capital" şirkətinin təşkilatçısı olduğu beynəlxalq konfransda operator şirkətlər, texnologiya, avadanlıq və xidmət təchizatçıları, dövlət orqanlarının nümayəndələri arasında Xəzər regionunda fövqəladə hallara reaksiya və neft sızmalarının nəticələrinin aradan qaldırılması məsələləri ilə bağlı əməkdaşlığın və qarşılıqlı fəaliyyətin yolları müzakirə edilib.




# ELEKTRON İNFORMASİYA BAZASI İSTİFADƏYƏ VERİLƏCƏK

***Gələn ildən Bakı Limanının fəaliyyətini asanlaşdırmaq üçün elektron informasiya bazası istifadəyə veriləcək.***

Bu sözləri "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov deyib.

O bildirib ki, Bakı Limanı ilə Dövlət Gömrük Komitəsi sıx əməkdaşlıq edir, yaxın vaxtlarda bu iş avtomatlaşdırılmış, elektron formada aparılacaq.

T.Ziyadovun sözlərinə görə, gələn ildən Azərbaycana gələn "TIR"ların gömrükdən keçən zaman artıq Bakı Limanına bu barədə məlumat daxil olacaq. "Biz elektron informasiya bazası vasitəsilə "TIR"ın limana çatma vaxtı, hansı gəmi ilə yola salınması və digər məlumatları qabaqcadan bilib, planlı şəkildə hərəkət edəcəyik", - deyə limanın baş direktoru bildirib.

# İPOTEKA ALMAQ İSTƏYƏNLƏRİN GƏLİRİNİN HESABLANMASI QAYDASI MÜƏYYƏNLƏŞİB

***Nazirlər Kabineti "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin (ASC) vəsaiti hesabına verilən ipoteka krediti, o cümlədən güzəştli ipoteka krediti üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması Qaydası"nı təsdiq edib.***



Bu Qayda ASC-nin vəsaiti hesabına müvəkkil banklar tərəfindən ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi zamanı borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması ilə bağlı məsələləri tənzimləyir. İpoteka krediti yaşayış sahəsi almaq üçün müvəkkil bankın verdiyi və həmin yaşayış sahəsinin ipotekası ilə təmin edilən borcdur. Müvəkkil bank ipoteka krediti üzrə tələb hüquqlarının əldə edilməsinə və bununla bağlı yaranan digər münasibətlərin tənzimlənməsinə dair cəmiyyət ilə müvafiq müqavilə bağlamış bankdır. Aylıq məcmu gəlir borcalanın (borcalanların) müraciətindən əvvəlki ardıcıl gələn 12 aylıq dövr ərzində sabit və sənədlə təsdiq olunan bütün növ gəlirlərinin orta aylıq məbləğinin məcmusudur. Borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması zamanı Azərbaycan Respublikasının ərazisində əldə edilən, həm də onun hüdudlarından kənardakı mənbələrdən daxil olan milli və xarici valyutadakı gəlirləri nəzərə alınır. Borcalanın (borcalanların) aylıq məcmu gəliri hesablanarkən nəzərə alınan gəlir mənbələri muzdlu işlə əlaqədar gəlirlərə, muzdlu işlə əlaqədar olmayan gəlirlərə və alınmış cari transfertlərə bölünür. Borcalanan (borcalanların) aylıq məcmu gəliri hesablanarkən əməkhaqqı (tarif (vəzifə) maaşı, tarif (vəzifə) maaşına və ya əməkhaqqına əlavələr, mükafatlar), Əmək Məcəlləsi ilə işçinin iş yeri və əməkhaqqının saxlanıldığı dövr üçün ödənilən əməkhaqqı (o cümlədən əmək qabiliyyətinin müvəqqəti itirilməsi dövrü də daxil olmaqla), istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığın pozulmasına görə ödənclər nəzərə alınır.

Hesablama zamanı nəzərə alınan muzdlu işə aid olmayan fəaliyyətdən gəlirləri sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərdən ibarətdir. Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər Vergi Məcəlləsinə əsasən müəyyən edilir. Bu zaman borcalan (borcalanlar) ən azı son 24 ay müddətində sahibkarlıq fəaliyyəti ilə məşğul olmalıdır. Sadələşdirilmiş vergi ödəyiciləri üzrə nəzərə alınan aylıq məcmu gəlirin məbləği, gəlir və xərclərin əsaslandırılmış təhlili əlavə olunmaqla, ticarət və istehsal sahələri üzrə ortaaylıq dövriyyənin 20 faizindən, xidmət sahələri üzrə isə 40 faizindən çox ola bilməz.

Qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərə faiz gəliri, dividend, qiymətli kağızlardan əldə olunan gəlirlər, əmlakın icarəyə verilməsindən gəlir və royalti aiddir.

Borcalanın (borcalanların) aldığı cari transfertlərə əmək pensiyaları, sosial müavinətlər (birdəfəlik müavinətlər istisna olmaqla), təqaüdlər, sığorta ödənişləri, maddi yardımlar (birdəfəlik maddi yardımlar istisna olmaqla) və aliment aiddir. Gəlirlərin hesablanması zamanı borcalanın (borcalanların) gəlirləri ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi üçün tələb olunan aylıq gəlirin ən çoxu 50 faizi həcmində nəzərə alınır. Borcalanın (borcalanların) xarici valyuta ilə əldə olunan gəliri bu gəlirin əldə edildiyi tarixdə Mərkəzi Bankın müəyyən etdiyi məzənnəyə müvafiq hesablanır. Borcalanın (borcalanların) gəlirləri vergi, əmək, sığorta, o cümlədən sosial sığorta və bank qanunvericiliyi ilə müəyyən edilmiş təsdiqedici sənədlərə əsasən hesablanır. Əməyin ödənilməsi sistemləri üzrə ödənilən mükafatlar ödəniş sənədinə daxil edildiyi ayda, əməkhaqqı, pensiya, müavinət, təqaüd isə hesablandığı dövrün gəlirində nəzərə alınır. Faktiki ödənilən alimentlər borcalanın (borcalanların) məcmu gəlirindən çıxılır, faktiki alınan alimentlər isə borcalanın (borcalanların) məcmu gəlirində nəzərə alınır.

Borcalanın (borcalanların) ortaaylıq gəliri müraciətindən əvvəlki ardıcıl gələn 12 ay ərzindəki ümumi gəlirlərinin 12-yə bölünməsi yolu ilə hesablanır. Borcalanın (borcalanların) ortaaylıq gəliri hesablanarkən vergi, sosial sığorta haqları və digər məcburi dövlət ödənişləri borcalanın (borcalanların) gəlirindən çıxılır.

DƏNİZ

25 noyabr 2016-cı il № 77-80 (9083)

# "DİL – KARYERAYA GEDƏN YOL"

***Noyabrın 17-18-də Azərbaycan Dövlət Dəniz Akademiyasında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin və Təhsil Nazirliyinin dəstəyi ilə "Dil – karyeraya gedən yol" adlı üçüncü Ümumrespublika ali məktəblərarası tələbə müsabiqəsi keçirildi.***

Azərbaycan Dövlət Dəniz Akademiyasının artıq üçüncü dəfə ev sahibliyi etdiyi müsabiqədə gələcəyin dənizçiləri ilə yanaşı, daha 16 ali təhsil ocağının - Bakı Dövlət Universiteti, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyası, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Kooperasiya Universiteti, Qafqaz Universiteti, Sumqayıt Dövlət Universitetinin tələbələri iştirak edirdilər.




















Tədbiri giriş sözü ilə ADDA-nın rektoru, texnika üzrə fəlsəfə doktoru, dosent Çingiz Əliyev açdı, gənclərin beynəlxalq dillərə mükəmməl yiyələnməsində belə tədbirlərin əhəmiyyətini vurğuladı və iştirakçılara uğurlar arzuladı.

Azərbaycan Dövlət İqtisad Universitetinin məzunu, "Dil – karyeraya gedən yol" adlı ikinci Ümumrespublika ali məktəblərarası tələbə müsabiqəsinin qalibi Faiq Xasayev hazırda Fransada təhsilini davam etdirdiyindən bu ilki müsabiqənin iştirakçılarına ürək sözlərini video görüntü vasitəsi ilə çatdırdı.

Cari ildə yaranmasının 20 illiyini qeyd edən Azərbaycan Dövlət Dəniz Akademiyasının fəaliyyətini əks etdirən videofilmin nümayişindən sonra müsabiqənin şərtləri barədə iştirakçılara məlumat verildi.

ADDA-nın tədris işləri üzrə prorektoru, professor Faiq Nağıyevin sədrlik etdiyi münsiflər heyətinə qabaqcıl elm və təhsil işçiləri daxil idi.

Hər iştirakçıya seçdiyi mövzunu qısa vaxt ərzində audio-vizual materialların köməyi ilə təqdim etmək imkanı verildi. Tələbələrin hazırladıqları layihələr maraqlı olduğu qədər də rəngarəng idi. Seçdikləri mövzuların təqdimatı zamanı bilik və bacarıqları, natiqlik məharətləri ilə fərqlənən tələbələr belə tələbkar münsiflər feyətinin asan olmayan suallarını da cavablandırırdılar.

Təqdim olunmuş layihələr müəyyən olunmuş kriteriyalar əsasında qiymətləndirildikdən sonra qaliblər elan edildi. Birinci yerə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının tələbəsi Məmmədağa Bəydəmirov layiq görüldü. Qalibə 1-ci dərəcəli diplom və noutbuk təqdim edildi.

İkinci yeri Milli Aviasiya Akademiyasının tələbəsi Nurad Ağayev tutdu. O, 2-ci dərəcəli diplom və planşetin sevincini yaşadı.

Üçüncü yerə isə Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbəsi Əli Nəsirli çıxdı (3-cü dərəcəli diplom və mobil telefon).

***Tahir DADAŞOV***

# AŞQABADDA DAYANIQLI NƏQLİYYAT SİSTEMİ ÜZRƏ İLK QLOBAL KONFRANS KEÇİRİLƏCƏK

***Noyabrın 26-27-də Türkmənistanın paytaxtı Aşqabadda dayanıqlı nəqliyyat sistemi üzrə ilk qlobal konfrans keçiriləcək.***

Türkmənistanın Azərbaycandakı səfirliyi noyabrın 21-də konfransla bağlı brifinq təşkil edib.

Səfirliyin birinci katibi Batır Rəcəbov tədbirin əhəmiyyətindən danışaraq bildirib ki, Türkmənistanın nəqliyyat sahəsində dövlət siyasətinin əsas istiqaməti Mərkəzi Asiya, Xəzər dənizi, Qara dəniz, Baltik regionu, Yaxın Şərq, Cənub və Cənub-Şərqi Asiyanı birləşdirən yeni geoiqtisadi məkanın yaradılmasıdır.

Batır Rəcəbov deyib ki, Türkmənistan-Əfqanıstan-Tacikistan dəmir yolunun Türkmənistan hissəsinin açılış mərasimi noyabrın 28-də keçiriləcək.



O, bu xəttin region ölkələrinin dostluq və əməkdaşlıq yolu olacağına ümid etdiyini vurğulayıb. Diplomat ilk qlobal konfransda Azərbaycan nümayəndə heyətinin də iştirak edəcəyini deyib.

B.Rəcəbov, həmçinin Azərbaycan ilə Türkmənistan arasında nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində görülən işlərdən danışıb. O, bu sahə üzrə yaradılmış işçi qrupunun bu yaxınlarda Azərbaycanda olduğunu qeyd edib.

# AZƏRBAYCAN ƏHALİSİNİN SAYI AÇIQLANIB

***Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 79,0 min nəfər və ya 0,8 faiz artaraq 2016-cı il oktyabr ayının 1-nə 9784,6 min nəfərə çatıb.***



Dövlət Statistika Komitəsindən bildiriblər ki, əhalinin sıxlığı bir kvadratkilometrə 113 nəfər olub. Əhalinin ümumi sayının 53,1 faizini şəhər, 46,9 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1007 nəfər qadın düşür.

Cari ilin yanvar-sentyabr ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkədə 119,7 min, yaxud hər gün orta hesabla 437 doğulan körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 16,5 təşkil edib. Doğulan körpələrin 53,4 faizi oğlan, 46,6 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrin 2090-ı əkiz, 54-ü isə üçəm doğulub.

Ölkə üzrə cari ilin ilk 9 ayı ərzində 42,0 min ölüm halı qeydə alınıb, ölüm səviyyəsi hər 1000 nəfər əhaliyə 5,8 olub. Bu müddətdə qeydiyyat şöbələri tərəfindən 50,4 min nikah və 9,6 min boşanma halları qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 7,0, boşanmaların sayı isə 1,3 olub. Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən cari ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana daimi yaşamaq üçün 2678 nəfər gələn və 1397 nəfər ölkədən gedən qeydə alınıb, miqrasiya saldosu müsbət 1281 nəfər təşkil edib.

# GÜZƏŞTLİ MƏNZİLLƏR KİMLƏRƏ VƏ HANSI ŞƏRTLƏRLƏ VERİLƏCƏK?

***Prezident İlham Əliyevin 2016-cı il 16 noyabr tarixli Fərmanı ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzillərin vətəndaşların güzəştlə əldə etməsi Qaydası" təsdiqlənib. Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru Samir Nuriyev təsdiq olunmuş yeni Qaydalarla bağlı və vətəndaşların güzəştli şərtlərlə mənzilə sahib olmasını təmin etmək məqsədilə görülən işlər barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.***

**- Samir müəllim, dövlət başçısının imzaladığı bu Fərmanın vətəndaşlar üçün sosial əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Prezident İlham Əliyevin 2016-cı il 16 noyabr tarixli Fərmanı və "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzillərin vətəndaşların güzəştlə əldə etməsi Qaydası" ölkə vətəndaşlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində son illər ərzində həyata keçirilən sosial siyasətin məntiqi davamıdır və olduqca mühüm əhəmiyyət kəsb edir.

Müstəqillik dövründə ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu və genişmiqyaslı islahatlar ölkəmizdə iqtisadi və sosial mühitin yaxşılaşdırılmasına xidmət edir. Həyata keçirilən uzaqgörən dövlət siyasəti sayəsində ölkəmizin dayanıqlı inkişafı təmin olunmaqla yanaşı, bir çox sosial problemlər öz həllini tapıb, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifahının daha da yüksəldilməsi istiqamətində mütərəqqi addımlar atılıb.

Dövlət başçısının qarşıya qoyduğu məqsədlərdən biri də vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Ölkə əhalisinin sayının artması vətəndaşlarımızın mənzilə tələbatının təmin olunması məsələsini daha da aktuallaşdırır. Xüsusilə də aztəminatlı vətəndaşların, gənc ailələrin mənzil probleminin həlli Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə kimi müəyyən edilib.

İmzalanmış Fərman ölkədə aztəminatlı ailələrin güzəştli şərtlərlə mənzillərlə təmin edilməsi məsələsinə cənab Prezident tərəfindən ayrılan xüsusi diqqətin, habelə Azərbaycan Respublikası vətəndaşının maraqlarının təmin olunması məqsədilə sosial sahədə həyata keçirilən dövlət siyasətinin reallaşdırılması çərçivəsində aparılan islahatların davamlılığı ilə bağlı qətiyyətin göstəricisidir.

Fərmanla təsdiq olunmuş Qayda vətəndaşların güzəştli şərtlərlə mənzilə



sahib olmasını təmin etməklə yanaşı, bu sistemin tam şəffaf şəkildə fəaliyyət göstərməsinə şərait yaradacaq.

Prezidentin tapşırıqları əsasında "Elektron hökumət" portalında yaradılacaq "Güzəştli mənzil" sistemi mənzilləri güzəştlə əldə etmək hüququ olan vətəndaşların vaxt itirmədən elektron qaydada qeydiyyatının aparılmasına və bu prosesdə insan faktorunun minimuma endirilməsinə imkan verəcək.

**- Yeni Qaydanın əsas mahiyyəti nədən ibarətdir? "Güzəştli mənzil" sistemi nə zaman istifadəyə veriləcək?**

- Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə mənzilləri güzəştlə əldə etmək hüququ olan şəxslər, habelə "Güzəştli mənzil" elektron sistemi vasitəsilə mənzillərin əldə olunması şərtləri və mexanizmi müəyyənləşdirilib. Qaydaya əsasən, "Elektron hökumət" portalında "Güzəştli Mənzil" sistemi yaradılacaq və vətəndaşlara Mənzil İnşaatı Dövlət Agentliyinə ayrılmış torpaq sahələrində inşa olunacaq yaşayış binalarında mənzilləri güzəştli şərtlərlə əldə etmək imkanı təqdim olunacaq. Sistem 2017-ci il mayın 1-dən etibarən istifadəyə veriləcək.

"Güzəştli mənzil" sistemi agentliyin tabeliyində fəaliyyət göstərən "MİDA" MMC-nin sərəncamında olan mənzilləri əldə etmək istəyən Azərbaycan Respublikası vətəndaşının elektron müraciətinin real vaxt rejimində vahid və ictimaiyyət üçün açıq olan qeydiyyatının aparılmasını təmin edəcək.

**- İlk dəfə Azərbaycanda tətbiq olunacaq "Güzəştli mənzil" sisteminin əsas üstünlükləri nədən ibarətdir? Mənzilləri kim əldə edə biləcək və proses necə həyata keçiriləcək?**

- Güzəştli şərtlərin əsas mahiyyəti ondan ibarətdir ki, satılacaq mənzillərin qiyməti həmin ərazidəki orta bazar qiymətindən aşağı olacaq. Eyni zamanda, vətəndaşlar mənzilin dəyərini "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin güzəştli ipoteka krediti vasitəsilə də 3 ildən 30 ilədək müddət ərzində aylıq ödəmək imkanı əldə edəcəklər. Qeyd edim ki, mənzillər tam təmirli və mətbəx mebeli ilə təchiz olunmuş vəziyyətdə təhvil veriləcək.

Qaydaya əsasən mənzilləri güzəştlə əldə etmək hüququ Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nın 3.2-ci bəndində nəzərdə tutulmuş şəxslərə məxsusdur.

Həmin bəndə uyğun olaraq aşağıdakı şəxslər güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malikdirlər.

gənc ailənin üzvü olan aşağıdakı şəxslər:

-şəhid ailəsinin üzvü (əri/arvadı, övladları);

-Milli Qəhrəman (özü, əri/arvadı, övladları);

-məcburi köçkün və ya ona bərabər tutulan şəxs;

-ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs;

-ən azı 5 il dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxs;

-fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs;

-idman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer);

Bununla yanaşı, ailə vəziyyətindən asılı olmayaraq, aşağıdakı şəxslər də güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malikdirlər:

-elmlər doktoru elmi dərəcəsi olan şəxs;

-ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxs;

-ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları ("Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.10-cu, 42.0.3-cü, 42.0.4-cü və 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarda ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular istisna olmaqla);

-ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxs.

Bu kateqoriyalara aid olunan şəxslər sosial ipotekadan yararlanmaq hüququna malik idilər. Artıq bununla yanaşı, təsdiq olunmuş yeni Qaydaya əsasən, həmin şəxslər sosial mənzillərin orta bazar qiymətindən aşağı qiymətə əldə edilməsi hüququna da sahib olurlar.

Qeyd olunan şəxslər "Güzəştli mənzil" sistemi vasitəsilə müraciət edib qeydiyyatdan keçdikdən sonra mənzil seçimini həyata keçirə biləcəklər. "Güzəştli mənzil" elektron sistemi iki pilləli olacaq. İlk növbədə müraciət edən vətəndaşın təqdim edəcəyi məlumatlar əsasında təsdiq olunmuş kateqoriyaya aid olub-olmadığı yoxlanılacaq. Müraciətə 5 iş günü ərzində baxılacaq və qeydiyyat haqqında qərar qəbul olunacaq.

Növbəti mərhələdə, satışa çıxarılan mənzillər haqqında elan dərc olunduqdan sonra sosial mənzil almaq hüququ olan və qeydiyyatdan keçmiş şəxs elektron sistem vasitəsilə mənzili ünvan əsasında otaq sayı və mərtəbə göstərilməklə seçərək əldə edə biləcək. Onu da vurğulayım ki, Qaydaya əsasən yalnız layihə üzrə tikinti işlərini 30 və daha çox faizi yerinə yetirilmiş binaların mənzillərinin satışa çıxarılması barədə elan verilə bilər. Elan satışın başlanmasına ən azı 30 gün qalmış veriləcək.

**- Agentliyin ilk layihəsinin icrası ilə bağlı işlər hansı mərhələdədir?**

- Artıq ictimaiyyətə məlumat verdiyimiz kimi, agentliyin ilk layihəsi olan Yasamal Yaşayış Kompleksi Bakı şəhərinin Yasamal rayonunda, xarici dairəvi avtomobil yolunun kənarında ayrılmış və sahəsi 11,6 hektar təşkil edən ərazidə həyata keçirilir. Yasamal Yaşayış Kompleksinin ərazisinin seçilməsi zamanı insanların rahat yaşayışı üçün zəruri olan bütün amillər nəzərə alınıb. Ərazi şəhərin ekoloji cəhətdən təmiz və əlverişli hissəsində yerləşir.

Ötən müddət ərzində Yasamal Yaşayış Kompleksinin yerləşəcəyi ərazi üçün şəhərsalma əsaslandırılması sənədi hazırlanaraq təsdiq olunub, habelə tikintinin layihə-smeta sənədləri tərtib edilib. Hazırkı mərhələdə tikinti layihəsi müvafiq ekspertiza rəyinin alınması məqsədilə Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Dövlət Baş Ekspertiza İdarəsinə təqdim edilib. Eyni zamanda, əraziyə yeni avtomobil yolunun çəkilməsi və mövcud mühəndis-kommunikasiya xətlərinin köçürülməsi işləri həyata keçirilir.

**- Vətəndaşları maraqlandıran əsas məsələlərdən biri də mənzillərin keyfiyyəti ilə bağlıdır. Tikiləcək binaların keyfiyyətinə nəzarət və tikinti şirkətləri ilə əməkdaşlıq necə təşkil ediləcək?**

- Qeyd etməliyəm ki, ölkə rəhbərliyi tərəfindən qarşımıza qoyulan əsas məqsədlərdən biri də həm binaların, həm də təmirin keyfiyyətinin yüksək səviyyədə olması ilə bağlıdır. Tam əminliklə qeyd etmək istəyirəm ki, həm görülən işin, həm də istifadə olunan tikinti materiallarının keyfiyyətinə ciddi nəzarət ediləcək. Agentlikdə və onun tabeliyində fəaliyyət göstərən "MİDA" MMC-də çalışan şəhərsalma üzrə mütəxəssislər, memarlar və tikintiyə nəzarəti həyata keçirən müvafiq bölmələrin əməkdaşları bu layihənin yüksək səviyyədə həyata keçirilməsini təmin edəcəklər. Ciddi nəzarət, eyni zamanda, tikintini həyata keçirən sahibkarlara işlərini tələb olunan keyfiyyət standartlarına uyğun təşkilinə xidmət edəcək.

Xüsusi vurğulanmasını zəruri hesab etdiyim daha bir amil yerli tikinti materiallarından istifadə məsələsidir. Son illər ərzində Azərbaycanda tikinti sənayesi sürətlə inkişaf edib. Həm dövlət, həm də yerli və xarici özəl investisiyalar hesabına ölkədə həyata keçirilən tikinti işləri bunun bariz nümunəsidir. Agentliyin sözügedən və növbəti tikinti layihələrinin reallaşdırılmasını da əhatə edəcək fəaliyyəti vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, həmçinin, inşaat sektorunun inkişafına da müsbət təsir göstərəcək. Sosial mənzillərin tikintisi yeni iş yerlərinin yaradılmasına, habelə inşaat sektorunun və tikinti materialları sənayesinin investisiya baxımından daha da cəlbedici olmasına töhfə verəcək.

**- Bəs güzəştli şərtlərlə mənzilə sahib olan vətəndaşlar üçün hər hansı məhdudiyyətlər nəzərdə tutulurmu?**

- Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə təsdiq edilmiş "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na əsasən mənzillər əldə olunduqda vətəndaşla müvafiq müqavilə imzalandığı gündən onun tam mülkiyyətinə veriləcək. Bununla belə, müvafiq müqavilədə mənzilin 3 il müddətində özgəninkiləşdirilməsinə, habelə icarəyə və kirayə verilməsinə məhdudiyyət nəzərdə tutulacaq. "MİDA" MMC-nin sərəncamında olan mənzillərin güzəştlə satılması dövlətin vahid sosial siyasətinin həyata keçirilməsi istiqamətində atılan addımlardan biridir və imtiyaz olaraq insanlara sosial dəstək göstərilməsi məqsədini daşıyır. Sirr deyil ki, güzəştli şərtlərlə orta bazar qiymətindən aşağı qiymətə əldə olunmuş mənzillər dərhal satışa çıxarılacağı təqdirdə əmlak bazarına mənfi təsir edər, həmçinin sui-istifadə hallarının baş verməsinə səbəb ola bilər. Qeyd olunan məhdudiyyət bunun qarşısını almaq məqsədi daşıyır. Güzəştli mənzil sahibləri əldə etdikləri əmlakı satmaq və ya icarəyə vermək hüququnu yalnız müəyyən olunmuş müddət bitdikdən sonra əldə edəcəklər.

**- Samir müəllim, ətraflı müsahibəyə görə təşəkkür edirik.**

- Mən də AZƏRTAC-a Agentliyimizin fəaliyyətini daim diqqət mərkəzində saxladığına görə təşəkkürümü bildirirəm. Oxuyucularımızı isə əmin etmək istəyirəm ki, dövlətimizin başçısının tapşırıqlarını rəhbər tutaraq, sosial mənzillərin tikintisi layihəsini və "Güzəştli mənzil" sisteminin yaradılmasını ən yüksək səviyyədə təşkil etmək üçün öz səylərimizi əsirgəməyəcəyik.

# “İNTERMODAL EUROPE 2016” BEYNƏLXALQ NƏQLİYYAT VƏ LOGİSTİKA SƏRGİSİ KEÇİRİLİB

***Niderland Krallığının Rotterdam şəhərində nəqliyyat və loqistika şirkətləri arasında nüfuz qazanan “İntermodal Europe 2016” adlı beynəlxalq nəqliyyat və logistika sərgisi keçirilib.***





Tədbirdə Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumuna daxil olan şirkətlər: «ADY Express» MMC (Azərbaycan), «ACSC Logistics» MMC (Azərbaycan), «KTZ Express» (Qazaxıstan) və «GR Logistics&Terminals» (Gürcüstan) Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunu təqdim ediblər.

Vahid stendlə sərgidə iştirak edən konsorsium iştirakçıları nəqliyyat sahəsində imkanlarını təqdim ediblər. Xəzər regionundan keçməklə, Çindən Türkiyə və Avropa ölkələri istiqamətində yükdaşımalar həyata keçirmək üçün Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) layihəsinin yaratdığı imkanlar, yüklərin nəql edilməsində yeni texnologiyalar və çatdırılma vaxtı sərgi iştirakçıları və qonaqlar tərəfindən böyük marağa səbəb olub.

Sərgi çərçivəsində, dünyanın tanınmış və nüfuzlu şirkətləri ilə çoxsaylı görüşlər keçirilib və danışıqlar aparılıb. “İntermodal Europe 2016” sərgisi bir daha TBNM layihəsinin dəyərini göstərməklə qlobal yükdaşımalar sistemində mültimodal nəqliyyat sisteminin üstünlüyünü bir daha sübut edib.

Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumunun nümayəndələri “Yeni İpək yolu: Avropa ilə Çini birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu” adlı biznes sessiya keçiriblər. Biznes sessiyada Transxəzər Beynəlxalq Nəqliyyat konsorsiumunun müşahidə şurasının sədri, “Azərbaycan Dəmir Yolları” QSC-nin sədr müavini İqbal Hüseynov, konsorsiuma daxil olan Azərbaycan, Qazaxıstan və Gürcüstan şirkətlərinin nümayəndələri, Almaniyanın “DB Cargo” və DHL, İsveçrənin ASSTRA, Bolqarıstan, Rumıniya və Polşa yükdaşıyıcıların nümayəndələri çıxış ediblər. Biznes sessiya zamanı, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu haqda, onun imkanları, həyata keçirilən infrastruktur layihələr, yükgöndərən və yükdaşımalarla məşğul olanlar üçün yaradılan şərait və perspektivlər haqda ətraflı məlumatlar çatdırılıb. “DB Cargo”, DHL və ASSTRA şirkətlərinin nümayəndələri tədbir iştirakçıları ilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yükdaşımalar həyata keçirmələri haqda təcrübələrini bölüşüblər.

Keçirilən tədbirlər əsnasında, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun təqdim etdiyi yeni logistika məhsuluna, yükdaşımalar bazarında böyük marağın olduğu dəfələrlə qeyd edilib.

Rotterdamda təşkil olunan tədbirin təşkilatçısı Azərbaycanın “ADY Express” şirkətidir. Bundan əvvəl isə il ərzində bu cür tədbirlər Çinin Şanxay şəhərində “Transport Logistics China 2016” və Ukraynanın paytaxtı Kiyev şəhərində “TransUkraina 2016” sərgiləri çərçivəsində keçirilmişdir.

# BAKI LİMANININ AVROPA PARLAMENTİNDƏ TƏQDİMATI OLUB

***“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin baş direktoru Taleh Ziyadov Belçika Krallığında səfərdə olub və Avropa Komissiyasının Nəqliyyat və Hərəkətlilik üzrə Baş direktoratlığının rəhbəri Henrik Hololei ilə danışıqlar aparıb. Görüş zamanı Bakı Limanının fəaliyyəti barədə ətraflı məlumat verilib və gələcək əməkdaşlıq perspektivləri barədə müzakirələr aparılıb.***



Həmçinin Avropa Parlamentində “Avropaya Yeni Giriş – Bakı Limanı” adlı təqdimat mərasimi keçirilib. Tədbir Avropa Parlamentinin üzvləri olan deputatlar İvo Vayql (Sloveniya) və xanım Gesine Maysnerin (Almaniya) birgə təşkilatçılığı ilə təşkil olunub. Tədbirdə müxtəlif Aİ təsisatlarını təmsil edən 100-dən çox rəsmi nümayəndə və Avropa Parlamentinin bir qrup deputatı, Brüsseldə akkreditə olunmuş diplomatik nümayəndəliklərin əməkdaşları, eləcə də Belçikada fəaliyyət göstərən beyin mərkəzləri, akademik dairələr və KİV nümayəndələri də iştirak ediblər.

Təqdimat mərasimi Azərbaycanın tarixi və mədəni irsini əks etdirən videoçarxla başlayıb.

Daha sonra İ.Vayql açılış nitqi ilə çıxış edib və Azərbaycanın ötən müddət ərzində müstəqil inkişafına toxunub, Azərbaycanda nəqliyyat infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən islahatlardan və bu xüsusda, regionun strateji nəqliyyat qovşağına çevrilməsi prosesinin sürətlənməsindən bəhs edib. İ.Vayql Azərbaycanın Aİ-nin etibarlı enerji tərəfdaşı olması ilə yanaşı, strateji nəqliyyat tərəfdaşı kimi də dəyərləndirilə biləcəyini bildirib.

Daha sonra çıxış edən Avropa Parlamentinin deputatı Gesine Maysner Azərbaycanda tranzit imkanlarının geniş olması ilə bağlı məqamı qeyd edib və Azərbaycanın regional nəqliyyat və logistika mərkəzi kimi əhəmiyyətini vurğulayıb. G.Maysner, həmçinin bu tədbirə ev sahibliyi etməkdən məmnunluğunu ifadə edib.

Taleh Ziyadov Bakı Beynəlxalq Dəniz Ticarət limanının hazırkı fəaliyyəti və gələcək perspektivləri, onun inkişaf konsepsiyası, infrastrukturu, o cümlədən liman ətrafında yaradılan Azad Ticarət Zonası (ATZ) layihəsinin strateji-iqtisadi əhəmiyyətinə dair geniş məlumat verib. Bakı Limanın Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzərində mühüm nəqliyyat-logistika qovşağı (hub) olacağına, Avropa və Asiyanı birləşdirən, geniş beynəlxalq logistika şəbəkəsinin bir hissəsinə çevriləcəyinə və bununla tarixi İpək yolunun yenidən canlanmasına öz xüsusi töhfəsini verəcəyinə dair fikirlərini bölüşüb.

Baş direktor cari il sentyabrın 7-də tanınmış “DP World” şirkəti ilə məsləhətçi qismində müqavilənin imzalandığını və Ələtdə yerləşən yeni Bakı Limanı və ətrafında ATZ qurulduğunu qeyd edib. O vurğulayıb ki, ATZ-də nəqliyyat və logistika infrastrukturunun qurulması, neft-kimya və əczaçılıq sahələrinin yaradılması, müxtəlif çeşiddə malların istehsalı, qablaşdırılması, markalanması və s. kimi işlərin həyata keçirilməsi planlaşdırılır. Bununla da ATZ-də minlərlə yeni iş yeri açılmış olacaq, bu da öz növbəsində ölkəyə böyük həcmdə investisiyaların cəlb olunmasına şərait yaradılacaq.

Daha sonra, 2018-ci ildə Bakı şəhərinin ev sahibliyi edəcəyi Beynəlxalq Limanlar Assosiasiyasının (International Association of Ports and Harbors – IAPH) illik konfransına dair məlumat verilib və tədbirdə iştirak edən nümayəndələr konfransa dəvət edilib.

Təqdimat mərasiminin sonunda yekun nitqi ilə çıxış edən İvo Vayql tədbir iştirakçılarına və Taleh Ziyadova öz təşəkkürünü bildirib və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə tam dəstəyini ifadə edən Aİ-nin mövqeyini tədbir zamanı bir daha səsləndirilib.

Əlavə olaraq, Taleh Ziyadovun Bakı Limanına dair verdiyi geniş və dolğun müsahibəsi Aİ-nin nüfuzlu media orqanı hesab edilən "Euroactiv" xəbər portalında yerləşdirilib. https://www.euractiv.com/section/europe-s-east/interview/ziyadov-baku-will-become-a-dubai-like-hub-in-eurasia/

# BOLQARISTAN İCTİMAİYYƏTİ AZƏRBAYCANIN ENERJİ, NƏQLİYYAT İMKANLARI BARƏDƏ MƏLUMATLANDIRILIB

***Azərbaycanın Bolqarıstandakı səfiri Nərgiz Qurbanova bu ölkənin nüfuzlu “Novinite” xəbər portalına müsahibə verib.***

Energetika sahəsində əməkdaşlıq imkanlarından danışan səfir “Cənub” Qaz Dəhlizinin Xəzər dənizindən alternativ qaz ehtiyatlarını Avropaya nəql etməklə Avropa İttifaqı, o cümlədən Bolqarıstanın enerji təhlükəsizliyinin gücləndirilməsinə yönəlmiş, dünyada indiyədək layihələşdirilmiş ən mürəkkəb qaz nəqli infrastrukturundan biri olduğunu bildirib. Səfir 2020-ci ildən etibarən Azərbaycanın “Şahdəniz” qaz yatağı vasitəsilə Bolqarıstanı ildə bir milyard kubmetr qazla təchiz edəcəyinin nəzərdə tutulduğunu, bu qaz həcminin Bolqarıstan-Yunanıstan qaz birləşdirici kəməri vasitəsilə nəql ediləcəyini söyləyib. Diplomat əlavə edib ki, “Cənub” Qaz Dəhlizinin özəyini təşkil edən TAP və TANAP kəmərlərinin fiziki olaraq Bolqarıstan ərazisindən keçməməsinə baxmayaraq, Avropaya çıxış baxımından Bolqarıstan dəhlizin mühüm komponenti hesab olunur.

Azərbaycanın “Balkan” qaz qovşağı layihəsinə sərmayə qoyuluşunda maraqlı olması ilə bağlı sualı cavablandıran səfir Azərbaycan-Bolqarıstan münasibətlərində enerji sahəsində əməkdaşlığın inkişafının mühüm rol oynadığını, ölkəmizin Bolqarıstanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanı mühüm tərəfdaş görməsini yüksək qiymətləndirdiyini bildirib. O, qarşılıqlı faydalı enerji tərəfdaşlığının inkişafında Azərbaycanın Bolqarıstanla əməkdaşlıq etməyə hazır olduğunu söyləyib. Diplomat deyib ki, SOCAR xarici tərəfdaşlarla enerji əməkdaşlığının möhkəmləndirilməsində Balkan regionunu əsas regionlardan biri kimi qiymətləndirir.


novinite.com
Sofia News Agency
BUSINESS POLITICS WORLD SOCIETY SPORTS FORUM Latest Culture
Editorial Interview Features Opinions Expert Voices Diplomatic Chann
KEYWORDS TODAY: CVM CETA PRESIDENTIAL ELECTIONS BULGARIANS ABROAD
Nargiz Gurbanova: Azerbaijan Considering Bulgaria's Proposals on Balkan Gas Hub
Novinite Insider » DIPLOMATIC CHANNEL | Author: Angel Petrov
Views: 6542 | Comments: 0

Jurnalistin nəqliyyat sahəsində əməkdaşlıq imkanları barədə sualına cavabında səfir deyib: “Azərbaycan Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin vacib iştirakçısı hesab edilir. Ölkə daxilində, eləcə də regionda müasir infrastrukturun yaradılmasında əldə etdiyi nailiyyətlər, hər iki beynəlxalq dəhlizin kəsişməsində əlverişli coğrafi mövqeyi, eləcə də Qara, Aralıq dənizlərinin və Fars körfəzinin dərin su limanlarına yaxınlığı, maliyyə dayanıqlılığından irəli gələrək böyük həcmdə sərmayə qoymaq imkanı, transregional layihələrin icrasında çoxtərəfli əməkdaşlıq təcrübəsi kimi amillər Azərbaycanı bu coğrafiyadakı bütün tranzit layihələrin əvəzolunmaz iştirakçısı kimi təsbit edib”. O, nəqliyyat sahəsinin ölkələrimiz arasında prioritet əməkdaşlıq sahəsi olduğunu, Azərbaycanın Bolqarıstan üçün Mərkəzi Asiya bazarlarına çıxış imkanı əldə etmək baxımından “qapı” rolunu oynadığını, Bolqarıstanın isə Azərbaycana Avropanın digər ölkələrinə çıxış əldə etməyə imkan yaratdığını qeyd edib.

Diplomat qeyd edib ki, Azərbaycan və Bolqarıstan arasında ticari-iqtisadi, elmi-texniki əməkdaşlıq haqqında komissiyanın Bakıda keçirilən 4-cü iclası nəqliyyat sahəsində əməkdaşlıq məsələlərinin müzakirəsi baxımından əlverişli platforma rolunu oynayır. Həmçinin iclas çərçivəsində Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı ilə Bolqarıstanın Limanlar İnfrastrukturu Şirkəti arasında Anlaşma Memorandumu imzalanıb. Sözügedən sənəd Bakı limanı ilə Bolqarıstanın Burqas və Varna limanları arasında əməkdaşlığın qurulmasını nəzərdə tutur. Səfir gələn il yol-nəqliyyat sahəsində ekspert görüşlərinin təşkil ediləcəyi barədə də məlumat verib.

İKT sahəsində əməkdaşlıq imkanları barədə danışan səfir Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci il martın 3-5-də Bolqarıstana səfəri zamanı imzalan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamədə hər iki ölkənin İKT sahəsində əməkdaşlığın dərinləşməsi ilə bağlı niyyətlərinin təsbit olunduğunu və səfər çərçivəsində rabitə, informasiya texnologiyaları və elektron idarəçilik sahəsində əməkdaşlıq haqqında hökumətlərarası Sazişin imzalandığını xatırladıb.

N.Qurbanova sentyabrın 29-da Bakıda keçirilən Azərbaycan-Bolqarıstan biznes forumunda İKT sahəsi üzrə ixtisaslaşan bolqar şirkətlərinin Azərbaycan şirkətləri ilə faydalı danışıqlar apardığına ümid etdiyini bildirib. İclas çərçivəsində, həmçinin İKT sahəsində əməkdaşlıq imkanları barədə müzakirə aparıldığını vurğulayan səfir Bolqarıstan operatorlarının telekommunikasiya şəbəkələrinin Azərbaycan tərəfindən irəli sürülən və BMT-nin müvafiq qətnamələri vasitəsilə dəstəklənən Trans-Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihəsinin tərkib hissəsi kimi istifadə edilməsi imkanı ətrafında fikir mübadiləsinin aparıldığını bildirib.

Müsahibədə, həmçinin bərpası Heydər Əliyev Fondu tərəfindən maliyyələşdirilən “Trapezitsa” Memarlıq Muzeyi Qoruğu barədə söhbət açılır. Bildirilir ki, Bolqarıstanın Veliko Tırnovo şəhərində yerləşən “Trapezitsa” Memarlıq Muzeyi Qoruğunun sentyabrın 22-də keçirilmiş açılış mərasimində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva, Bolqarıstanın Baş naziri Boyko Borisov, Veliko Tırnovo şəhərinin meri Daniel Panov və digər yüksək vəzifəli şəxslər iştirak ediblər.

Heydər Əliyev Fondu tərəfindən nəinki Azərbaycanda, eləcə də bütün dünyada mədəni irsin dəstəklənməsi ilə bağlı çoxsaylı layihələrin həyata keçirildiyini vurğulayan səfir “Trapezitsa” Memarlıq Muzeyi Qoruğunun bərpası layihəsindən yalnız iki ölkənin deyil, eləcə də buranı ziyarət edən turistlərin yararlanacağını diqqətə çatdırıb.

Səfir ölkələrimiz arasında kənd təsərrüfatı, turizm, təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb. O, həmçinin sentyabrın 29-30-da Bakıda keçirilmiş V Beynəlxalq Humanitar Forum barədə məlumat verərək xatırladıb ki, Bolqarıstanı tədbirdə vitse-prezident Marqarita Popovanın rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib. Səfər çərçivəsində vitse-prezident Azərbaycanın nüfuzlu ali təhsil ocaqlarından olan və bolqarşünaslıq fakültəsinin tədris edildiyi Bakı Slavyan Universitetinə, eləcə də universitet nəzdində fəaliyyət göstərən Bolqar Dili və Mədəniyyəti Mərkəzinə baş çəkib. Həmçinin BSU-da Azərbaycanın Bolqarıstandakı səfirliyinin və Xaricdə Yaşayan Bolqarlar üzrə Dövlət Agentliyinin dəstəyi ilə Bolqarıstanın slavyan dünyasına töhfəsini əks etdirən sərgi təşkil olunub.

***İqbal Hacıyev***



## “İsrafil Hüseynov” borudüzən gəmisi hazırda 32 düymlük qaz ixrac xətlərinin inşasını həyata keçirir

***Bu ilin yanvar-sentyabr aylarında “Şahdəniz Mərhələ 2” layihəsi uğurla irəliləməyə davam edib. Hazırda layihə üzrə işlərin - mühəndis işləri, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 83 faizdən çoxu tamamlanıb və ilk qazın 2018-ci ildə əldə edilməsi planına uyğundur.***

“BP-Azerbaijan” şirkətindən verilən məlumata görə, ölkədəki bütün tikinti-quraşdırma və istehsalat sahələrində - həm dənizdə, həm də quruda, o cümlədən Səngəçal Terminalı, Bakı yaxınlığındakı ATA (AMEK/Tekfen/Azfen) sahəsi, Bakı Dərin Özüllər Zavodu və boru kəməri marşrutu boyunca irimiqyaslı işlər görülür.

Sentyabr ayında layihə mühüm bir hadisəni qeyd edib – “Şahdəniz Mərhələ 2” üçün tikilən iki platformadan birinin dayaq bloku Bakı Dərin Özüllər Zavodundan dənizdə quraşdırılmaq üçün yola salınıb. Hasilat və Dikborular (HDB) platformasının dayaq blokunun daşınması, suya endirilməsi və yerləşdirilməsi işləri artıq təhlükəsiz şəkildə başa çatdırılıb, payaların üzərinə quraşdırılması işləri isə davam edir.

“İsrafil Hüseynov” borudüzən gəmisi “Şahdəniz”in şimal və qərb cinahlarındakı dörd sualtı axın xəttinin hamısının inşasını başa çatdırıb və hazırda qalan 32 düymlük qaz ixrac xətlərinin inşasını həyata keçirir. Bu işlər 2017-ci ilin birinci rübünədək davam edəcək.

“Xankəndi” sualtı tikinti gəmisinin istismara verilməsi üçün hazırlıq işləri yaxşı irəliləyir. Sentyabr ayında gəminin əsas mühərrikləri işə salınıb. Bu yeni gəmi tam hazır olduqda “Şahdəniz-2” sahəsinə aparılaraq sualtı qurğuların tikintisini icra edəcək.

Bu ilin üçüncü rübündə Azərbaycanda 24 mindən çox insan bütün əsas müqavilələr üzrə tikinti işlərinə cəlb olunub ki, onların da 80 faizdən çoxu Azərbaycan vətəndaşıdır.

## Xəzərdə iki iri liman tikiləcək

***Xəzər nəqliyyat-logistika kompleksinin yaradılması Layihəsinin həyata keçirilməsi Mahaçqala (Dağıstan, Rusiya) dəniz ticarət limanının dövriyyəsini 5-6 dəfə artırmağa imkan verəcək.***

Report xəbər verir ki, bu barədə Dağıstanın rəhbəri Ramazan Abdulatipov yerli mətbuata danışıb.

“Bu gün Mahaçqala dəniz limanının dövriyyəsi 1,5-2 mln. ton təşkil edir. Ticarət dövriyyəsini illik 10-12 mln. tona qədər artırmaq imkanına malikik. Ona görə, bu limanın yenidən qurulması, habelə yeni dəniz limanının tikintisini qarşıya vəzifə kimi qoymuşuq”, - deyə Dağıstanın rəhbəri bildirib.

Onun sözlərinə görə, 127 mlrd. rubl (3.3 mlrd. manat) dəyərində olan bu layihə (Xəzər Nəqliyyat-Logistika və Dəniz Sənaye Kompleksi) ölkə başçısı Vladimir Putinə təqdim edilib: “Bura gəmiqayırma zavodu, gəmi təmiri zavodu, bio-dəniz texnologiyaları zavodunun inşası, Xəzərdə kadr mərkəzinin yaradılması və hərbçilərin artıq bu istiqamətdə çalışdıqları yeni hərbi-dəniz bazası daxildir”.

R.Abdulatipov, həmçinin əlavə edib ki, ilkin hesablamalara görə, Xəzərdə təkcə kilkə ovu sayəsində respublika ildə 2,5 mlrd. rubl həcmində əlavə gəlir əldə edə bilər.




## “Clean Energy” LNG tankerini icarə götürüb

***Rusiyanın enerji nəhəngi “Gazprom” şirkəti Yunanıstanın “Pegasus Shipholding”in mülkiyyətində olan və “DYNAGAS” tərəfindən işlədilən 150 min kubmetr daşıma tutumuna malik M/T “Clean Energy” adlı mayeləşdirilmiş təbii qaz (liquefied natural gas-LNG) tankerini icarə götürüb.***

“Gazprom” “Clean Energy”ni gündəlik 40 min dollar olmaqla 93 aylığa kirayələyib. 7 il 9 aylıq icarə müddətində “Gazprom” tanker üçün 115 milyon dollar ödəyəcək.

2007-ci ildə Koreya Respublikasının “Hyundai” tərsanəsində inşa edilən “Clean Energy”nin uzunluğu 288 metr, eni isə 44 metrdir.

# O illərdə “Dəniz” nədən yazırdı

## (Nöqtəsinə, vergülünə dəymədən)




## Azərbaycanda ilk gəmi inşaatı

Vano Strua adına gəmi inşaatı zavodunun işçiləri müharibə günlərində yüksək əmək nümunələri göstərmişlər. 1944-cü ilin əvvəlində zavod işçilərinin qarşısında, yedək gəmisi inşaat etmək kimi mürəkkəb və məsul vəzifə qoyulmuşdu. Bunun üçün qısa müddətdə gəmiləri layihələndirmək, texnoloji işləyib hazırlamaq, hamar döşəməli böyük bina tikmək, zavod sexlərinin çoxunu abadlaşdırmaq tələb olunurdu.

Layihə hazırlamaq vəzifəsini yerinə yetirməkdə, Xalq Dəniz Donanması Komissarlığının dəniz gəmi layihəsi işçiləri, texniki elmlər namizədi Osolovski başda olmaqla özlərini doğrultdular.

Həmin layihəni həyata keçirmək işində gəmi mühəndisi Starçik və mühəndis mexanik Vilyak yoldaşların fədakarlığını xüsusi qeyd etmək lazımdır.

Yedək tikməyin əsasında bölmələr üsulu qoyulmuşdu. Bütün gəmi 52 bölməyə ayrılmışdı ki, bu da xüsusi yığma meydançasında hazırlanmış və avtomobil mancanaqları vasitəsilə stapelə gətirilmişdi.

Qaynaq işlərinin təşkilini və qaynaqçıların öyrədilməsini qaynaq sexinin naçalniki Falko yoldaş təmin etdi. Gəmi mühəndisi Aksenenko yoldaş yaxşı işi ilə özünü göstərdi. Bu işdə təcrübənin az olmasına baxmayaraq, zavodun inşaat qrupu (naçalnik Xudabaşev, mühəndis Borisenko yoldaşlardır) stapellərin inşaatını təmin etdi. Onlar hidrotexniki işləri öz qüvvələri ilə görərək, zavod sahəsini də asfaltlaşdırdılar. İnşaat qrupu işçilərinin gərgin əməkləri nəticəsində tərsanədə möhkəm taxta yollar quruldu.

Qazançılar sexinin (naçalnik Leybenzon, partiya təşkilatçısı Rexiaşvili, sex komitəsi sədri Batiyenko yoldaşlardır) fəhlələri böyük işlər görmüşlər. Zavodun köhnə kadr fəhlələrindən Medvedov, Qorşkov, Javoronkov, Kryuçkov, Uyutov, Rakov, Bondorenko və başqaları mürəkkəb qazan işlərini müvəffəqiyyətlə görüb qurtarmışlar.

Zavod fəhlələrinin vəzifəsi – noyabrda istismara veriləcək yedək gəmilərinin mexanizmlərini də vaxtında qurtarmaqdan ibarət olmalıdır.

*S. Soyfer,*
*Vano Strua adına gəmi inşaatı zavodunun direktoru*
*“Qaspi bolşeviki” qəzeti, №31 (2031), 18 aprel 1945-ci il*

## İlk gəmi suya buraxıldı

Aprelin 18-də Xəzər dənizçilərinin həyatında böyük bayram idi, Sovet Azərbaycanında ilk dəfə gəmi inşaatına başlamaq Vano Strua adına zavodun gəmi təmir edənləri və mühəndis-texniki işçilərinə nəsib oldu. Zavodda dayanan bütün gəmilər dəniz bayraqları ilə bəzənmişdi. Xəzər hərbi donanması döyüşçülərinin nəfəsli orkestrinin gurultulu səsi açıq dənizə yayılır. Zavod bayram şənliyi keçirir.

Bakı vaxtı ilə saat 18-də baş gəmi inşaatı mühəndisi Volostnov yoldaş gəmini suya buraxmaq üçün hazır olduğunu xəbər verir. Orkestr təntənəli sovet marşları çalır, gəmi bir anda suya buraxılır.

Xəzər hövzəsinin adlı-sanlı adamları, gəmiçilik naçalnikləri, partiya-təsərrüfat rəhbərləri, gəmi mühəndisləri, gəmi təmir edən zavodların direktorları, staxanovçuları, Qızıl Ordu və Hərbi Dəniz Donanması hissələrinin nümayəndələri tribunada göründülər. İlk yedək gəmisinin suya buraxılması münasibətilə çağırılan mitinqi zavodun partiya təşkilatı katibi Hüseynov yoldaş açdı. Sonra zavodun direktoru Soyfer yoldaşa söz verilir. Soyfer yoldaşın çıxışı nitqindən sonra Xəzər neft və quru yük daşıma gəmiçiliklərinin naçalniki Rəhimov yoldaş, Xəzər hövzəsi həmkarlar komitəsinin sədri Əskərov yoldaş və başqaları çıxış edərək təmirçiləri təbrik etmişlər.

Həmçinin zavodun staxanovçularından qazançı Qədimov, zavod həmkarlar komitəsinin sədri Melik yoldaşlar çıxış edərək gələcəkdə daha yaxşı işləyəcəklərinə söz vermişlər.

Yığıncaq nəfəsli orkestorun çaldığı Sovet İttifaqının Dövlət Himni altında qurtarır. Yenicə dənizə buraxılmış yedək gəmisinin bayrağı qaldırılır.

*“Qaspi bolşeviki” qəzeti, № 32 (2032), 20 aprel 1945-ci il*

## Yaşı çox olanların döyüşən ordunun şəxsi heyyətindən buraxılması haqqında

### Q A N U N

Faşist Almaniyasına qarşı böyük vətən müharibəsinin qələbə ilə başa çatdırılması ilə əlaqədar olaraq Sovet Sosialist Respublikaları İttifaqının Ali Soveti yaşı çox olanları Döyüşən Ordunun şəxsi heyyətindən buraxmağı lazım hesab edir.

*Sovet Sosialist Respublikaları İttifaqının Ali Soveti buna uyğun olaraq qərara alır:*

1. Yaşı çox olanlardan, birinci növbədə on üç müxtəlif yaşlı hərbi qulluqçuların Döyüşən Ordunun şəxsi heyyətindən buraxılması haqqında SSR İttifaqı Xalq Komissarları Sovetinin təklifi təsdiq edilsin.

2. Həmin qanunun birinci bəndində göstərilən on üç müxtəlif yaşlı hərbi qulluqçuların Döyüşən Ordunun şəxsi heyyətindən buraxılması işi 1945-ci ilin ikinci yarısında qurtarsın.

3. Tərxis edilənlər yaşayış yerinə çatanadək – dövlət hesabına daşınsınlar.

4. Əsgərlikdən buraxılanların hamısı yaşayış yerinə çatanadək yolda dövlət hesabına yeməklə təmin edilsinlər.

5. Əsgərlikdən buraxılanların hamısı bir dəst paltar və ayaqqabı ilə təchiz edilsinlər.

6. Əsgərlikdən buraxılanların hamısına böyük vətən müharibəsi zamanı ordu sıralarında xidmət etdikləri hər il üçün aşağıda göstərilən miqdarda birdəfəlik pul mükafatı verilsin:

a) bütün qoşun növləri və xidmətlərində qulluq edən və ümumi qoşun maaş dərəcələri üzrə pul alan döyüşçülərə - xidmət etdikləri hər il üçün bir illik maaş;

b) xüsusi hissələrdə və bölmələrdə qulluq edən, yüksək maaş alan döyüşçülərə - xidmət etdikləri hər il üçün yarım illik maaş;

v) bütün qoşun növlərindən olan serjantlara – xidmət etdikləri hər il üçün çoxu 900 manat və azı 300 manat olmaqla vəzifə dərəcələrinə görə yarım illik maaş;

q) böyük vətən müharibəsi dövründə aşağıda göstərilən müddətdə qulluq etmiş zabitlərə:

bir il üçün – iki aylıq maaşları,

iki il üçün – üç aylıq maaşları,

üç il üçün – dörd aylıq maaşları,

dörd il üçün – beş aylıq maaşları.

7. Müttəfiq və muxtar respublikaların xalq komissarları sovetlərinə, ölkə və vilayət zəhmətkeş deputatları Sovetlərinin icraiyyə komitələrinə, şəhər rayonlarındakı müəssisə, idarə və təşkilat rəhbərlərinə bir vəzifə olaraq tapşırılsın ki, əsgərlikdən buraxılanlara gəlib yaşayış yerlərinə çatdıqları gündən çoxu bir ay keçənədək iş versinlər. Onlara iş verirkən Qızıl Ordu sıralarında qazandıqları təcrübə və ixtisas nəzərə alınsın, ordu sıralarına getməzdən əvvəl gördükləri işdən aşağı olmayan iş verilsin, habelə əsgərlikdən buraxılanlar mənzil və yanacaqla təmin edilsinlər.

8. Rayon və kənd yerlərindəki zəhmətkeş deputatları Sovetlərinin icraiyyə komitələrinə və kolxozların idarə heyyətlərinə bir vəzifə olaraq tapşırılsın ki, ordudan buraxılıb öz kəndinə qayıdan kəndlilərə işə düzəlməkdə və təsərrüfat qurmaqda hər cəhətdən kömək etsinlər.

9. Alman işğalından zərər çəkən rayonlarda müttəfiq və muxtar respublikaların xalq komissarları sovetlərinə, ölkə və vilayət zəhmətkeş deputatları Sovetlərinin icraiyyə komitələrinə bir vəzifə olaraq tapşırılsın ki, ev tikməyə və mənzillərini təmir etməyə ehtiyacı olan Qızıl Ordudan buraxılan adamlara taxta-şalban tədarük etmək üçün pulsuz olaraq meşədə yer ayırsınlar.

10. Kommunal və mənzil tikintisinə pul buraxan Ümumittifaq bangına (Mərkəzi kommunal bangına) bir vəzifə olaraq tapşırılsın ki, alman işğalından zərər çəkən rayonlarda əsgərlikdən buraxılmış şəxslərdən ehtiyacı olanlara yeni ev tikdirmək və evlərini təmir etmək üçün 5 ildən 10 ilədək müddətdə ödəmək şərtilə 5 mindən 10 min manata qədər borc pul buraxsın.

*SSRİ Ali Soveti Rəyasət Heyyətinin sədri M. Kalinin,*
*SSRİ Ali Soveti Rəyasət Heyyətinin katibi A. Qorkin.*
*Moskva, Kreml. 23 iyun 1945-ci il.*
*“Qaspi bolşeviki” qəzeti, № 49 (2049), 27 iyun 1945-ci il*

## İ. V. Stalin yoldaşın xalqa müraciəti

*Yoldaşlar! Vətəndaşlar!*

Almaniya üzərində böyük Qələbə günü gəlib çatdı. Qızıl Ordu və müttəfiqlərimizin qoşunları tərəfindən diz çökdürülən faşist Almaniyası məğlubiyyətə uğradığını etiraf etdi və danışıqsız təslim olduğunu bildirdi.

Mayın 7-də Reyms şəhərində təslim haqqında ilk protokol imzalandı. Mayın 8-də Almaniya baş komandanlığının nümayəndələri müttəfiq qoşunlarının Ali Komandanlığı və sovet qoşunlarının Ali Baş Komandanlığı nümayəndələrinin yanında qəti təslim aktını imzaladılar. Bu akt mayın 8-də saat 24-dən etibarən həyata keçməyə başlandı.

Müqavilə və sazişləri sadə kağız parçası hesab edən alman başçılarının canavar təbiətini bildiyimizə görə onların sözünə inanmağa haqqımız yoxdur. Lakin bugün səhərdən etibarən alman qoşunları təslim aktını yerinə yetirərək kütləvi surətdə silahlarını yerə qoyub qoşunlarımıza təslim olmağa başlamışlar. Bu isə artıq sadə kağız parçası deyildir. Bu, Almaniya silahlı qüvvələrinin həqiqətən təslim olması deməkdir. Doğrudur, Çexoslovakiya rayonunda almanların bir qoşun dəstəsi hələ də təslim olmaqdan boyun qaçırır. Lakin ümidvaram ki, Qızıl Ordu həmin qoşun dəstəsinin ağlını başına gətirə biləcəkdir.

İndi biz tam haqlı olaraq deyə bilərik ki, Almaniyanın tamamilə tarmar edilməsinin tarixi günü, alman imperializmi üzərində xalqımızın möhtəşəm qələbə günü gəlib çatmışdır.

Vətənimizin azadlıq və istiqlaliyyəti naminə verilən böyük qurbanlar, müharibənin gedişində xalqımızın çəkdiyi say-sız-hesabsız sıxıntı və iztirablar, arxada və cəbhədə vətənimiz yolunda sərf edilən gərgin əmək əbəs olmadı və düşmən üzərində tam qələbə ilə nəticələndi. Slavyan xalqlarının öz varlığı və istiqlaliyyəti uğrunda əsrlərdən bəri apardığı mübarizə alman işğalçıları və alman zülmkarlığı üzərində qələbə ilə qurtardı.

Bugündən belə Avropa üzərində xalqlar azadlığının və xalqlar arasındakı sülhün böyük bayrağı dalğalanacaqdır.

Üç il bundan əvvəl Hitler bütün dünya qarşısında bildirmişdi ki, onun məqsədi Sovet İttifaqını parçalamaq və Qafqazı, Ukraynanı, Belorusiyanı, Baltik ölkələrini və başqa vilayətləri ondan ayırmaqdır. O, açıqdan-açığa demişdi: “Biz, Rusiyanı elə məhv edəcəyik ki, bir daha baş qaldıra bilməsin”. Bu sözlər üç il bundan əvvəl deyilmişdi. Hitlerin sərsəm fikirlərinə həqiqət olmaq qismət olmadı, müharibənin gedişi bu fikirləri alt-üst etdi. Həqiqətdə hitlerçilərin sayıqladıqları şeyin bir növ tamamilə əksi baş verdi. Almaniya tamamilə darmadağın edilmişdir. Alman qoşunları təslim olurlar. Sovet İttifaqı qələbəni bayram edir; lakin o, Almaniyanı nə parçalamaq, nə də məhv etmək fikrindədir.

Yoldaşlar! Böyük Vətən müharibəsi tam qələbəmizlə qurtardı. Avropadakı müharibə dövrü sona çatdı. Dinc inkişaf dövrü başlandı.

Mənim əziz vətəndaşlarım, sizi qələbə münasibətilə təbrik edirəm!

Vətənimizin istiqlaliyyətini qoruyan və düşmən üzərində qələbə çalan qəhrəman Qızıl Ordumuza eşq olsun!

Böyük xalqımıza, qalib xalqımıza eşq olsun!

Düşmənə qarşı vuruşmalarda həlak olan, canını xalqımızın azadlıq və səadəti uğrunda fəda edən qəhrəmanların xatirəsi əbədi yaşayacaqdır!

*“Qaspi bolşeviki” qəzeti, № 37 (2037), 11may 1945-ci il*

## Dənizçi qardaşlar

Müsahibim qarayanız, dənizçiyə məxsus sağlam vicudlu bir gəncdir. Biz onunla “Sentrosoyuz” gəmisinin bortunda görüşdük. O, açıq mavi dənizi diqqətlə nəzərdən keçirərək, dənizçi qardaşlarını xatırlayır, onlar haqqında iftixar hissi ilə danışır.

Həsən Paşa, Nazim, Azad, Azin Məmmədbəyli qardaşları dəniz aşiqləridir. Onlar Bakının dəniz ətrafı kəndlərindən olan Şağan kəndindəndirlər. Babaları Nəsrulla kişi də vaxtı ilə məşhur balıqçı olmuşdur.

Köhnə dənizçi ailəsində yeni nəslin ilk dənizçisi böyük qardaş Həsən Paşa 1923-cü ildə anadan olmuşdur. O, Bakı dəniz məktəbini əla qiymətlə qurtararaq, neft daşıma gəmiçiliyinin “Katanoviç”, “Ağamalı oğlu” və başqa gəmilərində kapitan köməkçisi vəzifələrində işləmişdir. Komsomolçu Həsən Paşa 1941-ci ildə könüllü olaraq vətən müharibəsi cəbhələrinə getmiş və Qara dəniz donanmasında olduğu zaman Sevostopolun müdafiəsində iştirak etmişdir.

Müsahibim Məmmədbəyli Nazim təvəzökar olduğu üçün özü haqqında danışmağı heç də sevmir. Ancaq mən onun həyatı ilə daha çox maraqlanıram. Nazim 1925-ci ildə anadan olmuşdur.

Gənc Nazim 1941-ci ildə qardaşı Həsən Paşanı Qızıl Ordu sıralarına yola salarkən Bakı dəniz məktəbinə daxil olmağı qərara aldı.

Nazim məktəbə daxil olduğu ilk gündən yaxşı oxumağı və yüksək intizamı ilə bütün müəllimlərin hörmətini qazanmışdır. Gəmi sürmək işindən dərs deyən Yusif Rəcəbov onun haqqında həmişə deyərdi: “Nazim dənizi sevir. Ondan uzaq məsafələrə üzən gəmi şturmanı olacaqdır”.

Nazim 1945-ci ildə Bakı dəniz məktəbini əla qiymətlə bitirdi. Onu sərbəst işləmək üçün “Sentrosoyuz” gəmisinə kapitanın üçüncü köməkçisi təyin etdilər. O, gəmidə, yaxşı işilə az vaxt içərisində özünü göstərdi. Burada ictimai işlərdə fəal iştirak etdiyinə görə gəminin komsomolçuları onu komsomol təşkilatının katibi seçdilər. O, həmçinin gəmidə çıxan “Kursant” divar qəzetinin buraxılması işinə də rəhbərlik edir.

Ortancıl qardaş Azad Məmmədbəyli 1927-ci ildə anadan olmuşdur. O, tam olmayan orta məktəbi bitirərək, qardaşının həvəsinə həmin məktəbin gəmi sürmə şöbəsinə daxil oldu. Azad da 1944-cü ildən Lenin – Stalin komsomolunun üzvüdür. Hazırda o, əla qiymətlə ikinci kursa keçmişdir.

Bu dənizçi ailəsində kiçik qardaş Azinin dənizçilik işində seçdiyi sənət o biri qardaşlarından xüsusilə fərqlənir. Azin də komsomolçudur. O, gəmi mexaniki olmaq arzusundadır. Ona görə də Azin Bakı matros şagirdləri məktəbinin maşın şöbəsinə daxil olmuşdur. Hazırda məktəbin üçüncü kursunda oxuyur. Azin ixtisaslı gəmi mexaniki olmaq üçün dərslərinə səy ilə fikir verir.

*Əhməd Rəhimov,*
*“Qaspi bolşeviki” qəzeti, 81 (2081), 12 oktyabr 1945-ci il*

## Donanmamıza gənc dənizçi kadrlar hazırlayaq

Qüdrətli hərbi və yük daşıma donanmamıza ixtisaslı dənizçilər hazırlamaq işində dənizçilik məktəbləri böyük rol oynamışdır. Keçən ilin mart ayında Dövlət Müdafiə Komitəsinin qərarı ilə Xalq Dəniz Donanması Komissarlığı sistemində qapalı surətdə dənizçilik məktəbləri təşkil olundu. Bakı dəniz texnikumu da həmin il dənizçilik məktəbi ilə əvəz olundu.

Beləliklə, keçən ilin payızından məktəbin siması tamamilə dəyişdi. Bütün otaqlar, siniflər qaydaya salındı, geniş və işıqlı yataqcaq otaqları düzəldildi. Kursantların dərsi müvəffəqiyyətlə mənimsəmələri üçün onlara əyani vasitələrdən və kabinet təcrübələrdən geniş istifadə etmək imkanı yaradıldı. Bu işdə radio-texniki mütəxəssisi müəllim Tağıyevin işini xüsusilə qeyd etmək lazımdır. İxtisaslı müəllimlərdən Tağıyev və Koroleviç yoldaşların yaxşı işləmələri nəticəsində az vaxtda bütün lazımi cihazlarla, alətlərlə, aparatlarla təchiz olunmuş nümunəvi kabinetlər təşkil olunmuşdur.

1944-45 illərin dərs illəri müvəffəqiyyətlə başa çatdırıldı. Bu ilki dərs ilinə nümunəvi hazırlaşmaq üçün məktəb komandanlığının qarşısında yeni vəzifələr dururdu. Məktəbdə yeni laboratoriyalar, kabinetlər təşkil edilməli, məktəbin binası avadanlaşdırılmalı və əsaslı təmir edilməli idi. Hazırda təmir işləri müvəffəqiyyətlə qurtarmışdır. Bu işdə Xəzər neft və quru yük daşıma donanmalarının naçalniki M. C. Rəhimov yoldaş məktəbimizə böyük kömək etmişdir. Yeni dərs ilinə müvəffəqiyyətlə başlamaq üçün bütün kursantlar, müəllimlər və məktəbin başqa işçiləri üçün lazımi şərait yaradılmışdır. Partiya və hökumətimiz bizə gələcək ixtisaslı dənizçi mütəxəssisləri hazırlamaq kimi şərəfli iş tapşırmışdır. Sovet dənizçisi dünyada ən savadlı, mədəni, öz işini mükəmməl bilən dənizçi olmalıdır.

Məktəbimizin ən yaxşı müəllim və işçilərindən Makarov, Kudelkin, Tağıyev, Popov, Qoldşdeyn, Hacıyev, Rəcəbov, Mustafayev, Zayseva və başqaları xüsusilə yaxşı işləyərək, ixtisaslı dənizçi kadrları hazırlamaq işində bütün bilik və bacarıqlarını sərf edirlər.

Bu il şturman, çilingər sexi, kimya, fizika, mexanik, tornaçı, radio-laboratoriya, radio-rubka, radio verilişi üçün yeni kabinetlər düzəldilmiş və sahmana salınmışdır. Bütün siniflər və yaşayış otaqları rənglənmişdir. Məktəbin geniş otaqları Sovet İttifaqı marşalları, admiralları və Vətən müharibəsi qəhrəmanlarının şəkilləri ilə bəzənmişdir.

Məktəbimizin komandanlığı 1945-46-cı tədris ilini də müvəffəqiyyətlə başa çatdırmaq üçün bütün qüvvəsini səfərbərliyə alacaqdır.

*Mayor A. İ. Mustafayev,*
*Bakı dəniz məktəbinin naçalniki,*
*“Qaspi bolşeviki” qəzeti, № 86 (2086), 31 oktyabr 1945-ci il*

## Partlayış nəticəsində 73 nəfər həlak olub, 100 nəfər yaralanıb



***Mozambikin Malavi sərhədi yaxınındakı Tete şəhərində yanacaq tankerində partlayış baş verib. Partlayış nəticəsində 73 nəfər həlak olub, 100-ü yaralanıb.***

Anadolu agentliyi xəbər verir ki, yaralılar ətrafdakı xəstəxanalara yerləşdirilib.

Sözügedən yanacaq tankerinin hadisədən qabaq aşdığı və partlayışa isə tankerdən neft çəkməyə çalışan insanların səbəb olduğu bildirilir.

## Gəmidə qaynaq işlərinin aparıldığı bildirilsə də...



***İndoneziyanın Batam adası limanında "MT Sonecon" tankerində baş vermiş yanğın və partlayış nəticəsində bir nəfər həlak olub, üç nəfər isə yaralanıb. Bu barədə yerli hərbi hissənin kapitanı məlumat verib.***

Kapitanın sözlərini sitat gətirən Detik.com saytı yazır: "Heyət üzvlərindən ikisi ciddi yanıq yaraları alıb və hazırda vəziyyətləri ağırdır. Daha bir nəfər isə yüngül yanıb".

Hadisə zamanı gəmidə qaynaq işlərinin aparıldığı bildirilsə də, həlalik partlayışın başvermə səbəbləri dəqiq müəyyənləşdirilməyib.

Hazırda istintaq davam edir.

## Çirkli su hövzələrindən tutulan balıq sağlamlıq üçün təhlükəlidir



***ABŞ-ın Skripps Okeanoqrafiya İnstitutunun alimlərinin sözlərinə görə, çirkli su hövzələrində tutulan balıqlarla qidalanmaq zəhərlənmə riskini xeyli artırır. Məsələ bundadır ki, həmin hövzələrdəki davamlı üzvi çirkləndiricilər bəzi balıqların əzələ toxumasında toplanır.***

"meddaily.ru" saytı xəbər verir ki, bu birləşmələr pestisidlərdə, neft-kimya sənayesi məhsullarında və odadavamlı materiallarda var. Həmin birləşmələr immun müdafiəsini asanlıqla yararaq, orqanizmə daxil olur və maddələrin hüceyrə membranı ilə daşınmasını təmin edən P-qlikoprotein zülalına yapışır.



## Neft axtarışına mane olub

***Barak Obama ABŞ-ın enerji şirkətlərinin qütb bölgələrində neft axtarışı fəaliyyətini əngəlləyib.***

ABŞ Prezidenti Barak Obama vəzifə müddətinin bitməsinə iki ay qalmış ABŞ-ın Alyaska ştatı sahillərində neft-qaz axtarışı və hasilatı fəaliyyətinə mane olub.

Belə ki, Obama hökuməti neft-qaz axtarışı və hasilatı fəaliyyətləri üçün enerji şirkətlərinə verilən icarə haqlarını ləğv edib. Sözügedən qanun 2017-ci il iyulun 1-dən qüvvəyə minəcək, Alyaska ştatının şimalındakı Bofort və Çukot dənizlərində işləyən şirkətləri əhatə edəcək.

## Milli rəqəmsal valyutasını buraxmağı planlaşdırır



***İsveç yaxın iki il ərzində "ekrona" adlı milli rəqəmsal valyutasını buraxmağı planlaşdırır.***

Bu barədə "banks.eu" saytı xəbər verir.

İsveçin "Riksbank" Mərkəzi Bankının müdirinin müavini Sesiliya Skinqsley bildirib ki, İsveç ölkədə nağd vəsaitlərin istifadəsinin kəskin düşməsindən atılacaq addımları nəzərdən keçirir. Belə ki, 2009-cu ildən ölkədə dövriyyədə olan banknot və sikkələrin sayı 40 faiz düşüb.

Bu ilin əvvəllərində Böyük Britaniyanın Daxili İşlər Nazirliyi rəqəmsal valyutanın ölkə üçün bir sıra üstünlüklərə malik olduğunu deyib.

Qeyd edək ki, 1660-cı ildə İsveçin "Riksbank" bankı dünyada kağız əsginaslar buraxmağa başlayan ilk Mərkəzi Bank olub.

# BAKI-SUMQAYIT-BAKI QATARLARI BİLƏCƏRİ VƏ XIRDALAN STANSİYALARINDA DA DAYANIR



*Noyabrın 19-dan etibarən Bakı-Sumqayıt-Bakı istiqamətində hərəkət edən elektrik qatarlarına Biləcəri və Xırdalan stansiyalarında dayanacaq verilir.*

"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyindən bildirilib ki, Biləcəri stansiyasında tək istiqamətdə (Sumqayıta gedən istiqamətdə) 250 metr uzunluğunda platforma, 7 ədəd oturacaq, 12 ədəd turniket, cüt istiqamətdə (Sumqayıtdan gələn istiqamətdə) isə 140 metr uzunluğunda platforma, 1 ədəd turniket, 4 ədəd oturacaq quraşdırılıb.

Xırdalan stansiyasında isə 450 metr uzunluğunda platforma, 2 ədəd turniket, 10 ədəd ikitərəfli oturacaq tikilib.

***Bakı-Sumqayıt-Bakı marşrutu üzrə hərəkət edən elektrik qatarlarında gediş haqqı tarifləri***

| İSTİQAMƏT | TARİF (MANATLA) | |
|---|---|---|
| | Ekonom | Biznes |
| Bakı - Sumqayıt (Sumqayıt - Bakı) | 0.80 | 1.20 |
| Bakı - Biləcəri (Biləcəri - Bakı) | 0.30 | 0.80 |
| Bakı - Xırdalan (Xırdalan - Bakı) | 0.40 | 1.00 |
| Biləcəri - Xırdalan (Xırdalan - Biləcəri) | 0.20 | 0.40 |
| Biləcəri - Sumqayıt (Sumqayıt - Biləcəri) | 0.60 | 1.00 |
| Xırdalan - Sumqayıt (Sumqayıt - Xırdalan) | 0.40 | 0.80 |

# BU İL DƏNİZ YOLU İLƏ AVROPAYA 335 MİN MİQRANT GƏLİB





***Beynəlxalq Miqrasiya Təşkilatı ilin əvvəlindən bəri Aralıq dənizi vasitəsilə Avropa ölkələrinə gələn mühacir və qaçqınların sayının 335 min nəfəri keçdiyini bildirib.***

TASS informasiya agentliyi xəbər verir ki, təşkilatın noyabrın 4-də Cenevrədə dərc olunan məlumat bülletenində noyabrın 2-dək Avropaya 335031 qaçqın gəldiyi qeyd olunur. Onların əsas hissəsini Yunanıstan (170 min nəfərə yaxın) və İtaliya (158 min nəfərdən çox) qəbul edib.

Həmçinin cari ilin əvvəlindən indiyədək Aralıq dənizində 4220 nəfər həlak olub və ya itkin düşüb. Hazırda ən təhlükəli miqrasiya marşrutu Şimali Afrikadan İtaliyaya gedən dəniz yolu sayılır. Bu marşrutda 3743 nəfər həyatını itirib. Türkiyədən Yunanıstana gedən dəniz yolunda isə 415 nəfər həlak olub.

Beynəlxalq Miqrasiya Təşkilatının rəsmi nümayəndəsi İtayi Virrinin sözlərinə görə, bu il Avropaya keçmək istəyərkən həyatını itirən mühacir və qaçqınların sayı ötən ilin analoji dövrü ilə müqayisədə 725 nəfər artıb. Bu siyahıya noyabrın 2-də Aralıq dənizinin Liviya və İtaliya sahilləri arasında baş verən iki gəmi qəzası nəticəsində ölən 240 nəfər də əlavə edilib.

# 550 NƏFƏRƏ YAXIN MÜHACİR XİLAS EDİLİB

***İtaliyanın sahil mühafizə xidməti noyabrın 14-də gecə Aralıq dənizində Avropaya keçmək istəyən 550 nəfərə yaxın qeyri-leqal mühaciri xilas edib.***

Interfax informasiya agentliyi xəbər verir ki, bundan başqa, xilasedicilər axtarış əməliyyatı zamanı dənizdə 5 nəfərin cəsədini də aşkarlayıblar.



# İÇMƏLİ SU TƏMƏL HÜQUQLAR SIRASINA DAXİL EDİLİB

***Sloveniya Avropa İttifaqında ilk dövlət olaraq içməli sudan istifadə hüququnu konstitusiya rəngina qaldıraraq təməl hüquqlar sırasına daxil edib.***

Ölkə parlamentinin deputatları konstitusiyaya əlavə fəslin daxil edilməsinə dair qərarı yekdilliklə dəstəkləyiblər. Həmin fəsildə "hər bir şəxsin içməli sudan istifadə hüququ" olduğu göstərilib və içməli suyun "əmtəə olmadığı" qeyd edilib. Əhalinin içməli su ilə təchizatı dövlət tərəfindən bələdiyyələr vasitəsilə həyata keçirilməli və bu, "birbaşa və qeyri-kommersiya" formasında olmalıdır.

Bununla da içməli su mənbələri və içməli su ilə təchizatın özəlləşdirilməsinə dair ölkədə uzun müddətdən bəri aparılan müzakirələrə son qoyulub. Müxtəlif cəmiyyətlər tərəfindən özəlləşdirməyə qarşı qaldırılan təşəbbüsə Baş nazir Miro Tserarın rəhbərlik etdiyi mərkəz-solçu hökumət də qoşulub.



Parlamentdə aparılan müzakirələrdə çıxış edən M.Tserar deputatları "XXI əsrin maye qızılı"nı ən yüksək hüquqi müdafiə ilə təmin etməyə çağırıb.

İndiyədək dünyanın 15 ölkəsində içməli sudan istifadə konstitusiya ranqlı təməl hüquq kimi qəbul edilib.

# İNSANI DAHA ÇOX ACDIRAN ƏRZAQ MƏHSULLARI



***Alimlər insanı daha çox acdıran ərzaq məhsullarını müəyyən ediblər.***

"healthvesti.com" saytı xəbər verir ki, kompleks mü-şahidələri İtaliyada yerləşən klinik mərkəzin əməkdaşları aparıblar. Dietoloqların fikrincə, ağ çörəyin tərkibində çoxlu faydalı maddələr var, lakin onu cem və ya kərəyağı ilə yemək lazımdır. Yumurtada zülal çoxdur, lakin onu yedikdən sonra insan yağ və kalori ilə zəngin əlavə yeməklər istəyir.

Yağsızlaşdırılmış süd məhsulları orqanizmi zəruri miqdarda vitaminlərlə təmin etmir, ona görə də kişilərdə və qadınlarda aclıq hissi yaranır. Bu cür yoqurtların əvəzinə adi süd içmək daha yaxşıdır. Konservlərdə və duza qoyulmuş məhsullarda aclıq yaradan və iştahanı artıran çoxlu duz var. Kəpəkli undan hazırlanan krekerlər və ağ düyü aclıq hissi yarada bilər, bu səbəbdən onları axşam yemək məsləhət deyil.

# İŞİNİ İTİRMƏKDƏN QORXANLAR DİABETƏ DAHA ÇOX TUTULURLAR

***Bir qrup tədqiqatçı sübut edib ki, işini itirməkdən qorxan kişi və qadınlar diabetə daha çox tutulurlar.***

"healthvesti.com" saytı xəbər verir ki, Bristol Universitetinin (Böyük Britaniya) əməkdaşlarının müşahidələrinə görə, işini itirmək qorxusu mürəkkəb xəstəliklərin əmələ gəlməsinə şərait yaradır. Layihələrin icrası zamanı həkimlər dünyanın müxtəlif ölkələrində yaşayan on minlərlə respondentin sağlamlıq durumunu təhlil ediblər.

Məlum olub ki, iş yerini itirməkdən qorxan insanın şəkərli diabetə tutulması ehtimalı xeyli artır. Bildirilir ki, təcrübə müəllifləri Avropa, Avstraliya və ABŞ-ın klinik mərkəzlərinin məlumatlarına əsaslanıblar.

# YARIZARAFAT, YARIGERÇƏK

**Sirkə nə qədər tünd olsa, ona o qədər də su çox əlavə etmək olar.**

**Deyəsən yandan pis görünürəm axı?! Yoxsa niyə mənə daha çox ya yuxarıdan aşağı baxır, ya da aşağıdan yuxarı yaxşı-yaxşı süzürlər?**

**Başa düşdüm ki, papaq dəbdən düşüb. Kişilik yox ki!**

**Bəzilərinə elə gəlir ki, yalnız tox olanda başqasının haqqını yemək günahdır.**

**Zəmanədən niyə narazıyıq? Bütün günahlarımızı zəmanənin boynuna yıxmırıq məgər?!**

**İstəyirsən bütün ömrün boyu aş bişirmə, fərqi yoxdur, elədiklərin bir gün qarşına çıxacaq.**

**Yadımda deyil, bığım olmayanda da sözüm keçmirdi?**

**Asfalt yolların xeyirdən çox, ziyanı var. Ancaq hamar yollarda yeriməyə öyrəşirik.**

**Gərək at sürməyi öyrənəm. Özgənin atına minənlər yaman bərk gedirlər.**

**Bilmirəm fikir vermisiniz, yoxsa yox, həqiqətlə yalanı qarışdıranda çox qəribə bir şey alınır.**

**Özünü apara bilməməyin ilk göstəricisi özünü çoxbilmiş kimi aparmaqdır.**

**Görəsən göndərilən hər yerdən əli ətəyindən uzun qayıdanların ətəyini uzatmağın faydası olar?**

**Pişiyin ağzı ətə çatmır, deyir "vegetarian"am.**

**Yaxşı ki, heç kəs mən deyəni demir. Hərə öz dediyinə cavabdehdir.**

**Bəziləri ürəyi yumşaqlıqdan pambıqla baş kəsirlər?**

**Az bilən, baş çox aparar.**

**Dəryalardan heç xoşum gəlmir. Hamı özünü ağıl dəryası kimi aparır.**

**İştah diş altındadırsa, vurub dişini sındırmalıyam?**

**Zaman hər şeyi yerinə qoyur? Deyəsən tənbəlləşib axı. Yox?**

**Savadlıdan müəyyən vaxtadək, ağıllıdan isə həmişə öyrənmək lazımdır.**

**Səhv etmədiyini düşünənlər öyrənmək istəməyənlərdir.**

**Heç kəsə yuxarıdan-aşağı baxmayın. Yuxarıdan baxan var.**

**Ucuz ətin təkcə şorbası yox, heç torbası da bir şey olmur.**

**Niyə yaltaqlara elə gəlir ki, onlardan təkcə mənim zəhləm gedir?**

**Ermənilər əvvəlcə yalan danışırlar. Sonra özləru bu yalanlara inanmağa başlayırlar. Daha sonra başqalarını inandırırlar. Hər halda kişilikdən əsər-əlamət olmayan millətdə bu, pis alınmır.**

**Hətta itə də it günündə yaşamağı arzulamıram.**

**Yaxşı adam olmaq pis şey olsaydı, hətta ən pis adamlar da özlərini yaxşı adam kimi təqdim etməyə çalışmazdılar.**

**"Kitayski" olmasa, hər şeyin təzəsi yaxşıdır.**

**Çox adamın piyada olduğu piyada gəzərkən yox, ağzını açarkən bilinir.**

**Əsl dostunuzla aranızda o qədər məsafə saxlayın ki, başqaları girə bilməsin.**

**İdarəetmənin ən çətini özünü idarə etməkdir.**

**Adamın gözü nə boyda olanda ona gözüaçıq deyirlər?**

**Suallardan yox, verdiyiniz cavablardan qorxun.**

**"Kişinin başına iş gələr"ə əmin olduqları üçün çoxu nakişiliyə meyl edir?**

**Ağlım kəsəndən dünyanın düz vaxtını görmədim. Siz görmüsünüz?**

**Mənim sözüm xoşuna gəlməyə bilər. Ən azı mən sözü kiməsə xoş gəlmək üçün demirəm.**

**Heç kəsə həsəd çəkməyin. Həsəd çəkdiyiniz adamın bir dərdi sizin bütün dərdlərinizi çəkə bilər.**

**Bir adam uzağı neçə yerə işləyə bilər?**

**Cılız, küt, lovğa adamlarla danışmaqdan çətin şey yoxdur.**

**Məni oxusan da sağ ol, oxumasan da. Amma mənə oxuma.**

**Çox adam başa düşmür ki, başa düşmədiyi çox şey var.**

**Heç kəsin faciəsinə sevinməyin. Sevinməyə o qədər yaxşı şeylər var ki...**

**Əvvəllər elə bilirdim yalnız Hindistanda fil qulağında yatırlar.**

**İndi başa düşdüm ki, bəziləri niyə pullu adamların ya sağında dayanır, ya da solunda. Adətən imkanlılar pullarını daha çox sağa-sola xərcləməyi xoşlayırlar.**

**Heç vaxt elə yerə getməyin ki, başqaları heç nə deməsə də, özünüz özünüzü qınayasınız: "Mənim burada nə işim var?"**

**Bütün nifrətimizi bir-birimizə yönəltdiyimiz üçün düşmənə nifrətimiz yoxdur?**

**Bəzilərinin dilindən tez-tez eşidirik: "Başıma haranın külünü töküm?" Külün nə fərqi var?**

**Bəziləri yalanı elə iştahla danışır ki...**

**Hər gün ünsiyyətdə olduğum dostumu tanıya bilmədimsə, düşmənimi necə tanıyım?**

**Ən yaxşı "yalan" dilə gətirilməyən, ən yaxşı həqiqət isə vaxtında deyilən həqiqətdir.**

**Kağız-qələmlə işləyirəm. Çörəyim niyə daşdan çıxsın?**

**Alın bizimdirsə, yazısını da özümüz yazmalıyıq.**

**Görəsən min namərdi qovmaqla heç olmasa birini mərd etmək olar?**

**Qırıq iplərdən nə isə düzəltmək olmur? Gör nə qədər ipiqırıq var...**

**Çörəkdə bərəkət qalar?! Gör nə qədər adamın çörəyi düz üstədir?**

**Doğru olan yerdə oğru olmaz.**

***Rasif TAHİROV***

## STOLÜSTÜ TENNİS ÜZRƏ AZƏRBAYCAN BİRİNCİLİYİNƏ YEKUN VURULUB




***Gənclər və İdman Nazirliyi və Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə "Şüa" İdman-Sağlamlıq Kompleksində Konstitusiya Gününə həsr olunmuş 2005-ci il təvəllüdlü və daha az yaşlı oğlan və qızlar arasında Azərbaycan birinciliyinə yekun vurulub.***

Noyabrın 9-da başlayan və şəxsi xarakter daşıyan yarışda Bakı və regionlardan 140-a yaxın idmançı mübarizə aparıb.

Bu münasibətlə təşkil edilən tədbirdə çıxış edən Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Səbuhi Mehdizadə ölkə başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin rəhbərliyi ilə fiziki sağlamlığın qorunması, idman və bədən tərbiyəsinin inkişafı sahəsində kompleks tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb, respublikamızın idman imicinin yüksəldilməsi, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, bölgələrdə müasir idman infrastrukturunun yaradılması istiqamətində reallaşdırılan tədbirlərdən danışıb. Federasiyanın vitse-prezidenti ölkəmizdə digər idman növləri ilə yanaşı, stolüstü tennisin də inkişaf etdiyini, bu idman növünə uşaq və yeniyetmələrin getdikcə artan marağını, onun inkişafı istiqamətində görülən işləri vurğulayıb.

Oğlanların yarışında Emin Məmmədov qızıl, Xaliq Becanov gümüş, İlkin Abdulov və Adil Əhmədzadə bürünc medal qazanıblar. Qızların mübarizəsində Fidan İranpur fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Xədicə Əbilzadə yarışı ikinci, Aysu Rəsulzadə və Hüsniyyə Novruzova isə üçüncü pillədə başa vurublar.

Sonda mükafatçılara Azərbaycan Stolüstü Tennis Federasiyasının diplom və mükafatları təqdim edilib.

## AZƏRBAYCAN İDMAN ÖLKƏLƏRİNİN REYTİNQİNDƏ İRƏLİLƏYİB

***Beynəlxalq nüfuzlu "Sportcal" (Sport Market Intelligence) şirkəti dünyanın qabaqcıl idman ölkələri və şəhərlərinin siyahısını açıqlayıb.***




Ev sahibliyi etdiyi yarışların nüfuzu, səviyyəsi və təşkilatçılığına görə müəyyənləşən reytinq siyahısında Azərbaycan da yer alıb. Belə ki, müxtəlif mötəbər çempionatların, həmçinin "Formula-1" və Şahmat Olimpiadası kimi yarışların keçirildiyi Azərbaycan siyahıya daxil olan 86 ölkə arasında 33-cü yerdə qərarlaşıb. Dörd pillə irəliləyən ölkəmizin əmsalı 5406 xalla dəyərləndirilib. Ermənistanın düşmədiyi siyahıda Azərbaycan MDB ölkələri arasında ötən il olduğu kimi, yenə də üçüncü pillədə yer alıb.

Ölkəmizi yalnız ümumi siyahıda ikinci olan Rusiya (39145) və 29-cu pillədə qərarlaşan Qazaxıstan (6469) qabaqlayır. Buna baxmayaraq, Azərbaycan Belçika, Argentina, Yunanıstan, Ukrayna, Portuqaliya, Serbiya kimi idman ölkələrini arxada qoyub.

İlk üçlükdə də dəyişiklik olub. Ötən il beşinci olan ABŞ (39262) bu dəfə liderliyi ələ keçirib. İkinci Rusiya, üçüncü yerdə isə Kanada (35474) gəlir. Siyahıda iki pillə geriləyən Türkiyə (11652) 20-ci yerə enib.

Şəhərlərin siyahısına isə bu dəfə London (19549) başçılıq edir. İlk üçlüyə Rio-de-Janeyro (18240) və Tokio (17808) daxildir. Bakı isə 5283 xalla dünyanın 17-ci şəhəridir. Paytaxtımız doqquz pillə irəliləyib. Bakı Minsk, Vankuver, Sankt-Peterburq, İstanbul, Barselona, Los-Anceles, Roma, Milan, Amsterdam və bir sıra aparıcı şəhərlərdən öndədir.

Həmçinin Bakı MDB məkanında Moskva, Kazan və Soçidən sonra dördüncü yerdə qərarlaşıb.



## Kriştianu Ronaldo ilə müqavilənin müddəti 2021-ciilədək artırılıb

***"Real Madrid" futbol klubu portuqaliyalı ulduz Kriştianu Ronaldo ilə müqavilənin müddətini 2021-ci ilədək artırıb.***

Yeni müqaviləni "Santyaqo Bernabeu" stadionunda klubun prezidenti Florentino Perez ilə Kriştianu Ronaldo imzalayıblar.

Müqavilə 2021-ci il iyunun 30-dək qüvvədə olacaq.

Hazırda 31 yaşlı hücumçu həftədə 410 min avro qazanır. O, komandanın ən yüksək məvacibli futbolçusu hesab edilir.

Kriştianu Ronaldo kral klubuna 2009-cu ildə İngiltərənin "Mançester Yunayted" komandasından 80 milyon funt sterlinq dəyərində müqavilə əsasında transfer olunub.



## Pankration üzrə dünya çempionatında 4 qızıl medal qazanıblar

***İtaliyanın Eboli şəhərində keçirilən pankration üzrə dünya çempionatında Azərbaycan idmançıları 4-ü qızıl və 1-i gümüş olmaqla ümumilikdə beş medal qazanıblar.***




Azərbaycan Pankration, Qrappling və MMA Federasiyasından bildiriblər ki, "Neftçi İdman Klubu"nun yetirmələrindən Pərviz Qasımov (53 kq), Ömər Mutayev (78 kq), Amil Məhərrəmli (85 kq), Seymur Quliyev (93 kq) qızıl, Xəyalə Əsgərova (57 kq) isə gümüş medal qazanıblar.

Qeyd edək ki, dünya çempionatında 43 ölkənin idmançıları iştirak edib.

## SƏRBƏST GÜLƏŞÇİLƏRİMİZ BEYNƏLXALQ TURNİRİ İKİNCİ PİLLƏDƏ BAŞA VURUBLAR





***İranın İsfahan şəhərində keçirilən yeniyetmələr arasında sərbəst və yunan-Roma güləşi üzrə "Day of Children" beynəlxalq turnir keçirilib.***

Sərbəst güləşçilərin yarışlarında Azərbaycan, İran, Rusiya, Gürcüstan, Tacikistan, Qırğızıstan, Ukrayna və Ermənistan komandaları mübarizə aparıb. Sərbəst güləşçilərimiz turniri ikinci pillədə başa vurublar.

Qrup yarışlarında sərbəst güləşçilərimiz Qırğızıstana 8:2, Gürcüstana və Ermənistana isə 9:1 hesabı ilə qalib gəliblər. Yığmamız Ukrayna ilə 5:5 hesablı heç-heçə edib. Xalların sayına görə 22:18 hesabı ilə üstün olan güləşçilərimiz qrup mərhələsini lider kimi başa vuraraq finala vəsiqə qazanıblar. Finalda İran idmançılarına 7:3 hesabı ilə uduzan sərbəst güləşçilərimiz gümüş medalla kifayətlənməli olublar. Beləliklə, sərbəst güləş yarışlarında İran, Azərbaycan və Ukrayna idmançıları müvafiq olaraq ilk üç pillədə yer alıblar.

Yunan-Roma güləşi yarışında isə Azərbaycan, İran, Rusiya, Türkmənistan, Gürcüstan, Moldova, İraq, Ermənistan, Ukrayna, Qırğızıstan və Tacikistan yığmaları mübarizə aparıb. Qrup yarışlarında Türkmənistanı 10:0, Qırğızıstanı 9:1 hesabı ilə üstələyən təmsilçilərimiz İran idmançılarına məğlub olublar. Bununla da güləşçilərimiz 9-cu yerdə qərarlaşıblar.

Yarışların idarə olunmasında Azərbaycanı beynəlxalq dərəcəli hakim Kamran Əliyev təmsil edib.

## YALNIZ FİNALDA MƏĞLUB OLUBLAR

***Azərbaycanın badminton idman növü üzrə 15 yaşadək gənclərdən ibarət milli komandası (U-15) Şimalı Kiprdə keçirilən beynəlxalq turnirdə ikinci yerə sahib olub.***



AZƏRTAC xəbər verir ki, Azərbaycan yığması Girne şəhərində keçirilən "XVI Dr. Fazil küçük idman oyunları" turnirində Türkiyə, Gürcüstan, Makedoniya və Şimalı Kiprin birinci və ikinci komandaları ilə qarşılaşıb.

Yarışda Azərbaycanı gənclərdən ibarət yığma komandanın məşqçisi Ceyhun Əlizadənin rəhbərliyi altında Nigar Əliyeva, Nazənin Əvesta, Negin Əvesta, Adəm Əliyev, Asiman Məsiyev və Vaqif Səfərzadə təmsil ediblər.

Yarışın nəticələrinə əsasən, Azərbaycan yığma komandası Gürcüstan (3:2), Makedoniya (4:1), Şimalı Kiprin birinci (5:0) və ikinci (5:0) komandaları üzərində qələbə qazanıb. Yalnız finalda Türkiyə komandasına 0:5 hesabı ilə məğlub olan millimiz turnirin gümüş mükafatçısı olub.

## VETERAN CÜDOÇUMUZ DÜNYA ÇEMPİONU OLUB

***Azərbaycanın veteran cüdoçusu Fərhad Rəcəbli ABŞ-ın Florida ştatında keçirilən dünya çempionatında qızıl medal qazanıb.***



90 kiloqram çəki dərəcəsində çıxış edən Rəcəbli mübarizəyə dörddəbir final mərhələsindən başlayıb. Cüdoçumuz çexiyalı Yaroslav Banszelə 2 dəqiqə 20 saniyə ərzində ipponla qalib gəlib. İdmançımızın yarımfinaldakı rəqibi finlandiyalı Yukka Laytinen cərimə xalları üzündən mübarizəni tərk edib. F.Rəcəbli finalda rusiyalı Vladimir Markelovu 2 dəqiqə 33 saniyə ərzində ipponla məğlub edərək dünya çempionu olub.

Azərbaycanın daha bir təmsilçisi Arif Qasımov 100 kiloqram çəki dərəcəsində beşinci yerlə kifayətlənib.

## DƏNİZÇİLİK KOLLECİNİN TƏMSİLÇİLƏRİ İKİNCİ PİLLƏDƏ QƏRARLAŞIBLAR



***"Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında respublika birinciliyi keçirilib.***

Təqvim planına şahmat, dama, stolüstü tennis, voleybol və basketbol daxil idi.

Oğlanlar arasında voleybol üzrə yarış Azərbaycan Dövlət Dəniz Akademiyasının Dənizçilik Kollecinin idman zalında keçirilib.

Bütün rəqiblərinə qalib gələn Azərbaycan Pedaqoji Kollecinin kollektivi birinci olub. Azərbaycan Dənizçilik Kollecinin təmsilçiləri ikinci, Bakı Dövlət Sosial İqtisad Kollecinin yetirmələri isə üçüncü pillədə qərarlaşıblar.

## GÜLƏŞ ÜZRƏ RESPUBLİKA BİRİNCİLİYİNİN QALİBLƏRİ MÜƏYYƏNLƏŞDİRİLİB

***Xaçmaz Olimpiya İdman Kompleksində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunan, "Təhsil" Respublika İdman Mərkəzinin (RİM) sərbəst və yunan-Roma güləşi üzrə açıq respublika birinciliyi keçirilib.***




Təhsil Nazirliyindən bildiriblər ki, respublika birinciliyi 2002-2004-cü il təvəllüdlü yeniyetmələr arasında təşkil edilib. Birinciliyin keçirilməsinin əsas məqsədi mərkəzin yeniyetmələrdən ibarət yığma komandalarını formalaşdırmaq, perspektivli idmançıları aşkarlamaq və bu idman növünə uşaqların marağını artırmaq olub.

Sərbəst güləş üzrə yarışlarda ümumilikdə 300-dək, yunan-Roma güləşi üzrə yarışlarda isə 280-dək idmançı mübarizə aparıb.

Yarışın nəticələrinə əsasən sərbəst güləş üzrə komanda hesabında birinci yeri Abşeron Uşaq Gənclər İdman Mərkəzinin (UGİM), ikinci yeri "Təhsil" RİM-in 1 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları İdman Mərkəzinin (RİOEİM), üçüncü yeri Siyəzən rayon Uşaq-Gənclər İdman Mərkəzinin (UGİM) komandaları qazanıblar.

Yunan-Roma güləşi üzrə isə komanda hesabında birinci yeri "Təhsil" RİM-in 1 nömrəli RİOEUGİM-in, ikinci yeri Beyləqan rayon UGİM-in, üçüncü yeri isə "Təhsil" RİM-in Sumqayıt filialının komandaları tutublar.







BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3348